RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 157 (8750) ŞƏNBƏ, 31 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qarabağın dirçəlişi - Azərbaycanın yüksəlişi

## İlham Əliyevin postmüharibə dövrünə hazırladığı prioritetlər davamlı inkişaf üçün mühüm dövlət konsepsiyasıdır

**İqtisadi qüdrəti möhkəm olan dövlət bütün sahələrdə uğur qazanmağa qadirdir. Son 18 ildə yaranan potensial Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkəmiz regional iqtisadiyyatın lokomotivi olaraq dünyada enerji təhlükəsizliyi ilə bağlı etibarlı tərəfdaşlardan birinə çevrilib. Bütün bunlar, əlbəttə ki, Azərbaycanın regionda iqtisadi rolunu daha da yüksəldib, ölkəyə böyük uğurlar qazandırıb.**

### Pandemiya ilə mübarizə dövründə də heç bir sosial layihə təxirə salınmayıb

Düzdür, qlobal pandemiya dövründə iqtisadiyyatımız zərər görüb. Amma bu böhran ölkəmizin ümumi sosial-iqtisadi inkişaf tempinə, hətta regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasına belə təsir göstərə bilməyib. Ölkədə heç bir sosial layihə təxirə salınmayıb.

Təkcə son 6 ayın statistik göstəricilərinə nəzər yetirsək görərik ki, artıq bir çox sahələrdə yüksəliş də var. Ölkə iqtisadiyyatı 2 faiz, qeyri-neft sektoru 5 faiz, qeyri-neft sənayesi 16,6 faiz, kənd təsərrüfatı 5,6 faiz artıb. Valyuta ehtiyatlarımız 1 milyard dollar artaraq 52 milyarda yüksəlib. Hazıda valyuta ehtiyatlarımız xarici dövlət borcundan təxminən 6 dəfə çoxdur. Bu nailiyyətlər, əlbəttə ki, İlham Əliyevin uğurlu siyasəti hesabına əldə edilib.

Bu gün isə qalib dövlət kimi Azərbaycan qarşısında çox böyük imkanlar açılıb. Bunu nəzərə alan dövlət başçısı növbəti illərdə hərtərəfli tərəqqi üçün yeni Milli Prioritetlər müəyyənləşdirib.

Bütün dövrlərdə baş verə biləcək neqativlərə qarşı əvvəlcədən tədbirlər görən, mühüm qərarlar qəbul edən İlham Əliyev yeni dövrdə də Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi, növbəti onillikdə sosial-iqtisadi inkişafının yüksəlişinin təmini üçün yol xəritəsi hazırlayıb. Sosial-iqtisadi inkişafa dair hazırlanan prioritetlər özündə beş istiqaməti cəmləşdirir - dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi...

Qarşıdakı 10 illik müddəti əhatə edən bu vacib iqtisadi sənəd eyni zamanda postmüharibə dövrünün reallıqlarını özündə əks etdirir.

Ardı 4-cü səh.

# Azərbaycan xalqı qardaş Türkiyənin yanındadır

**Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub göndərmişdir**



**Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana**

Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

Qardaş Türkiyənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları və onların törətdiyi fəsadlar barədə xəbər bizi son dərəcə kədərləndirir.

Əminəm ki, Sizin rəhbərliyiniz altında hökumətinizin atdığı qətiyyətli addımlar sayəsində əzmli və mübariz Türkiyə xalqı bu fəlakətin öhdəsindən tezliklə gələcəkdir.

Azərbaycan hökuməti və xalqı hər zaman olduğu kimi bu gün də qardaş Türkiyə xalqı ilə həmrəydir və onun yanındadır.

Dağıdıcı yanğınlar nəticəsində həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2021-ci il*

# Birinci vitse-prezident: "Türkiyədə baş vermiş dəhşətli yanğınların nəticələri barədə xəbərləri dərin kədər və təəssüf hissi ilə qarşıladım"



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində qardaş Türkiyədə baş verən yanğınlar nəticəsində həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Türkiyə regionlarında baş vermiş dəhşətli yanğınların nəticələri barədə xəbərləri dərin kədər və təəssüf hissi ilə qarşıladım. Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralıların tezliklə şəfa tapmasını arzulayıram. Türkiyə xalqının kədəri bizim kədərimizdir. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!"

# Azərbaycanın İkinci Qarabağ müharibəsindəki şanlı Qələbəsinə həsr olunmuş "Zəfər Salnaməsi" kitabı hazırlanıb

Azərbaycanın İkinci Qarabağ müharibəsindəki şanlı Qələbəsinə həsr olunmuş "Zəfər Salnaməsi" kitabı hazırlanıb.




AZƏRTAC xəbər verir ki, kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ön sözü ilə başlayır.

"Zəfər Salnaməsi" kitabının əsas ideyası Vətən müharibəsinin gedişini, həmin ərəfədə baş verən prosesləri, müharibədən sonrakı qayıdışı günbəgün xronika formatında izləməkdir.

Ardı 4-cü səh.

# Əhalinin məşğulluğunun təminatı üçün ehtiyat mənbələrindən də istifadə olunur

**Azərbaycanda əhalinin rifah halının daha da yaxşılaşdırılması üçün davamlı tədbirlər həyata keçirilir ki, bunların da mühüm bir hissəsini yeni iş yerlərinin açılması təşkil edir. İnsanların məşğulluq probleminin həlli daim dövlətin və şəxsən Prezident İlham Əliyevin diqqətindədir. Bu həssas münasibətin nəticəsidir ki, məşğulluğun yüksək səviyyədə həlli üçün yeni yollardan, ehtiyat mənbələrindən istifadə olunur.**

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla yerinə yetirilməsi ölkə iqtisadiyyatının qeyri neft-qaz sektorunda dayanıqlı inkişafın təmin edilməsinə, iqtisadiyyatın diversifikasiyası və prioritet sahələrə irihəcmli investisiyaların yönəldilməsi nəticəsində yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlamasına, yeni iş yerlərinin açılmasına zəmin yaratmışdır. Ölkə ərazisində təkcə 2020-ci il ərzində 9619 yeni müəssisə və təşkilat yaradılmış və onların 83,2 faizi Bakı şəhərində, qalanı digər iqtisadi rayonlarda işə başlamışdır. Qeyd edək ki, keçən il respublikanın bütün iqtisadi və inzibati rayonları üzrə 128979, o cümlədən ilin dördüncü rübündə 22742 yeni iş yeri açılmışdır.

Bu ilin birinci rübü ərzində Azərbaycanda yaradılmış 2833 yeni müəssisə və təşkilatın 77,8 faizi paytaxtın, qalanları digər iqtisadi rayonların payına düşmüşdür. Ölkə üzrə 13181 yeni iş yeri açılmışdır. Onların 10,9 faizi yeni, 85,5 faizi mövcud, 0,4 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 3,2 faizi isə digər tədbirlər üzrə yaradılmışdır. Yeni iş yerlərinin 79,9 faizi Bakı şəhərinə aiddir.

Ümumiyyətlə, bu ilin birinci yarısının sonunda ilkin məlumatlara əsasən, ölkədə iqtisadi fəal əhalinin sayı 5279,9 min nəfər olmuşdur və onlardan 4929,1 min nəfərini məşğul əhali təşkil etmişdir.

Ardı 6-cı səh.

# "Alfa", "beta", "qamma" və "delta"...

## Dünyanı çənginə alan qorxulu koronavirus ştamlarından yalnız peyvənd sayəsində qurtulmaq mümkündür




**Koronavirusun mutasiyaları nəticəsində son zamanlar meydana çıxan yeni ştamlar bütün dünyanı çənginə alıb. Xüsusilə, "narahatlığa səbəb olan variantlar" kateqoriyasına aid edilən dörd ştamın ("alfa", "beta", "qamma" və "delta") coğrafiyası getdikcə böyüyür.**

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bu qrupa daxil olan ştamların dünyada sürətlə yayılmasından narahatlığını ifadə edərək məlumat verib ki, ilk dəfə 2020-ci ilin sentyabr ayında Böyük Britaniyada aşkar olunan "alfa" variantı iyulun 28-nə olan məlumata görə, artıq 182 ölkədə aşkarlanıb. Ötən ilin avqust ayında Cənubi Afrikada ortaya çıxan "beta" variantı, hazırda 131 dövlətdə mövcuddur, sentyabr ayında Braziliyada aşkar edilən "qamma" variantı isə, yeddi gün ərzində coğrafiyasını 78-dən 81 ölkəyə qədər genişləndirib.

Yüksək yoluxuculuğu ilə fərqlənən koronavirusun "delta" ştamının yayıldığı ölkələrin sayı isə 132-yə çatıb. ÜST-ün həftəlik epidemioloji bülletenində məlumat verilir ki, son bir həftə ərzində dünyada yoluxma hallarının sayı 8 faiz artıb: koronavirusa 4 milyondan çox yoluxma halı aşkar edilib. Eyni zamanda ölüm hallarının sayı 21 faiz artıb, həftə ərzində 69 mindən çox ölüm halı qeydə alınıb. ÜST-ün məlumatına görə, pandemiya başlandığından bəri dünyada koronavirusa 194 milyondan çox yoluxma halı və 4 milyondan çox ölüm halı qeydə alınıb.

Ardı 5-ci səh.




# İlk medal bürünc oldu

## Cüdoçunuz İrina Kindzerska "Tokio-2020"ni mükafatla başa vurdu



**XXXII Yay Olimpiya Oyunlarının başa çatmasına saylı günlər qalıb. Sözsüz ki, olimpiadada xalqımızın medal gözlədiyi idman növləri sırasında cüdo da xüsusi yer alırdı. Çox təəssüflər ki, cüdoda medal ümidlərimizdən olan Rüstəm Orucov yarışın bir addımlığında şansı əldən verdi.**

Lakin bu təəssüfedici hal cüdo üzrə son yarış günündə sevinc hissi ilə əvəz olundu. Nəhayət, Tokiodan qələbə xəbəri gəldi. Təmsilçimiz İrina Kindzerska "Tokio-2020"də bürünc mükafat qazandı.

Ardı 6-cı səh.

# İsmayıllı rayonunun Hacıhətəmli-Gideyli-Kürd Eldarbəyli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dörd min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Hacıhətəmli-Gideyli-Kürd Eldarbəyli avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 5,6 milyon (beş milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2021-ci il*

# Meşə yanğınları ilə mübarizədə Azərbaycan Türkiyəyə hər cür yardım göstərməyə hazırdır



İyulun 30-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktay arasında telefon danışığı olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı əsnasında Türkiyədə davam edən meşə yanğınları ilə əlaqədar bildirilib ki, Azərbaycan hər zaman olduğu kimi, bu çətin məqamda da qardaş ölkənin yanındadır. Meşə yanğınları ilə mübarizədə Azərbaycanın Türkiyəyə hər cür yardım göstərməyə və bunun üçün bütün lazımi qüvvələri səfərbər etməyə hazır olduğu vurğulanıb.

Qeyd edilib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırıq və göstərişlərinə əsasən Fövqəladə Hallar Nazirliyinin 500 nəfərdən ibarət şəxsi heyəti, helikopterlər, həmçinin digər lazımi avadanlıq və ləvazimatlar ən qısa zamanda qardaş Türkiyəyə göndəriləcək.

# Sahibə QAFAROVA: "Azərbaycan hər zaman olduğu kimi qardaş Türkiyənin yanındadır"



**İyulun 30-da Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin müxtəlif bölgələrində baş verən yanğınların davam etməsi və bunun nəticəsində insanların həyatını itirməsi ilə əlaqədar Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopa başsağlığı məktubu ünvanlayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, parlamentin Sədri şəxsən öz adından və Azərbaycan Milli Məclisi adından yanğında həyatını itirənlərə Allahdan rəhmət, yaralananlara isə şəfa diləyib. Məktubda həmçinin deyilir: "Azərbaycan hər zaman olduğu kimi qardaş Türkiyənin yanındadır. Dualarımız sizinlədir".

# Hikmət HACIYEV: "Prezident İlham Əliyevin tapşırığı ilə qardaş Türkiyəyə Azərbaycandan yardım dəstələri göndəriləcək"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına müvafiq olaraq, meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə qardaş Türkiyəyə Azərbaycandan yardım dəstələri göndəriləcək.

Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının



Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib: "Bununla əlaqədar olaraq, Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Baş nazirinə və Fövqəladə Hallar Nazirliyinə lazımi tapşırıqlar və göstərişlər verilib. Müvafiq dövlət qurumları Türkiyədən olan tərəfmüqabilləri ilə əlaqə qurub və ən qısa zamanda yardım dəstələri qardaş ölkəyə yola düşəcək".

# Azərbaycan Prezidentinin tapşırığına əsasən FHN-in yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət ilk qrup Türkiyəyə yola salınıb

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğınsöndürmə qüvvələrinin əməkdaşlarından ibarət birinci qrup Türkiyədə tüğyan edən meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə iyulun 30-da qardaş ölkəyə yola salınıb.









AZƏRTAC xəbər verir ki, yanğınsöndürmə qüvvələrinin birinci qrupunun tərkibində 100 əməkdaş Heydər Əliyev Beynəlxalq Aeroportundan təyyarə ilə yola düşüb. Qrupun üzvləri Türkiyənin Dalaman bölgəsində yanğınlarla mübarizə aparacaq. Qrupu hava limanından fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev yola salıb və yanğınsöndürənlərə müvafiq tapşırıqlar verib.

E.Mirzəyev jurnalistlərə müsahibəsində deyib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişinə əsasən, bu gün Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin 100 əməkdaşı Türkiyənin Dalaman bölgəsinə göndərilir. Bildiyiniz kimi, son vaxtlar Türkiyədə baş vermiş meşə yanğınları nəticəsində insan tələfatı olub. Bununla əlaqədar Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Türkiyədə yanğın nəticəsində həlak olanların yaxınlarına və qohumlarına başsağlığı verib, yararlılara şəfa diləyib".

Nazir müavini Türkiyəyə göndərilən dəstə üzvlərinin fərdi yanğınsöndürmə vasitələri ilə tam təmin olunduqlarını vurğulayıb: "Dəstə üzvlərinin hamısı təcrübəli yanğınsöndürənlərdir. Onlar verilən tapşırıqların öhdəsindən lazımi səviyyədə gələ biləcəklər. Hazırda 500 nəfərdən artıq canlı qüvvə, 2 helikopter və 50-dən çox texnika yanğınların söndürülməsi işinə cəlb olunması üçün tam hazır vəziyyətə gətirilib. Əgər əlavə tapşırıq olarsa, biz onları da Türkiyəyə yola salmağa hazırıq".

# Azərbaycan Milli Məclisi ilə Pakistan Milli Assambleyası arasında Anlaşma Memorandumu imzalanıb







**İyulun 30-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Əsəd Qeysərin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə, parlament sədrlərinin təkbətək görüşü olub. Görüşdə iki ölkə arasında münasibətlərin yüksək səviyyəsindən razılıq ifadə olunub, parlamentlərarası əlaqələrin bu günü və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Tərəflər Azərbaycan, Pakistan və Türkiyə parlamentlərinin sədrlərinin birinci üçtərəfli görüşünün və Bakı Bəyannaməsinin əhəmiyyətini vurğulayıblar.

Sonra nümayəndə heyətlərinin geniş tərkibdə görüşü keçirilib.

Qonaqları salamlayan Milli Məclisin Sədri, Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Əsəd Qeysərə onun dəvətini qəbul edərək Azərbaycana rəsmi səfərə gəldiyinə görə minnətdarlığını bildirib. Qeyd edilib ki, Əsəd Qeysərin ölkəmizə bu səfəri Pakistan Milli Assambleyası Sədrinin ilk rəsmi səfəridir. Səfər zamanı Azərbaycan, Pakistan və Türkiyə parlamentlərinin sədrlərinin birinci üçtərəfli görüşünün keçirilməsi tarixi əhəmiyyət daşıyır. Pandemiya dönəmində belə bir tədbirin baş tutması münasibətlərimizin inkişafına verilən böyük əhəmiyyətdən irəli gəlir.

Milli Məclisin Sədri bildirib ki, ölkələrimiz arasındakı dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində dövlət başçılarının xüsusi rolu var. Hər iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri zamanı aparılan danışıqlar münasibətlərimizin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi üçün əsaslı zəmin yaradıb. Ölkələrimiz arasında imzalanmış 36 sənəd əməkdaşlığımızın hüquqi bazasını təşkil edir. 2015-ci ildə Bakıda imzalanmış "Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında strateji tərəfdaşlıq haqqında" Birgə Bəyannamə isə əlaqələrimizin yüksək səviyyəsinin göstəricisidir.

Sahibə Qafarova deyib ki, ölkələrimiz arasında mövcud olan geniş mədəni, humanitar münasibətlər xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına xidmət edir. Milli Məclisin Sədri xüsusilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən Pakistanda mühüm sosial-humanitar layihələr həyata keçirildiyini xatırladaraq qeyd edib ki, bu xeyirxah işlərinə görə Mehriban xanım Əliyeva 2015-ci ildə Pakistanın ali ordeni olan "Hilal-e Pakistan" ilə təltif edilib.

Görüşdə S.Qafarova Azərbaycan, Türkiyə və Pakistan parlamentlərinin sədrlərinin Şuşaya və Füzuliyə səfərlərini qeyd edərək deyib ki, nümayəndə heyətlərinin üzvləri 44 günlük Vətən müharibəsində Azərbaycan əsgərinin döyüş meydanında necə tarixi Zəfər qazandığının şahidi oldular. Biz Azərbaycanın haqlı mübarizəsində Pakistan hökumətinin və parlamentinin ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyi yüksək qiymətləndiririk.

Sahibə Qafarova Pakistan Milli Assambleyasında Azərbaycan Respublikasının ərazisinə erməni təcavüzünü pisləyən qətnamənin, həmçinin Xocalı şəhərində Ermənistan tərəfindən mülki əhaliyə qarşı törədilmiş soyqırımı haqqında qətnamənin qəbul edilməsini yüksək qiymətləndirib, bunun dostluğumuzun daha bir nümunəsi olduğunu vurğulayıb.

Azərbaycan və Pakistanın qanunverici orqanları arasında əməkdaşlıqdan da danışan Milli Məclisin Sədri hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyət göstərdiyini, parlamentlərimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiklərini bildirib.

Səmimi görüşə görə minnətdarlığını bildirən Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Əsəd Qeysər ölkəmizə rəsmi səfəri çərçivəsində parlament sədrlərinin birinci üçtərəfli görüşü, Bakı Bəyannaməsinin imzalanması barədə danışıb, Azərbaycanın rəsmi şəxsləri ilə keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. Bildirilib ki, Pakistan dost və qardaş ölkə olan Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verir.

Qonaq Vətən müharibəsində ölkəmizin öz ərazi bütövlüyünü bərpa etməsi münasibətilə Sahibə Qafarovanı və Azərbaycan xalqını təbrik edib. Qeyd olunub ki, bu məsələdə Pakistanın mövqeyi birmənalıdır, o, Azərbaycanın haqlı mübarizəsini həmişə dəstəkləyib.

Əsəd Qeysər ümidvar olduğunu bildirib ki, yüksəksəviyyəli siyasi dialoq iqtisadi, mədəni, humanitar sahələrə də öz təsirini göstərəcək. İqtisadi əlaqələrimizin dərinləşməsi xalqlarımızın ümumi mənafelərinə xidmət edir. Enerji, kənd təsərrüfatı, turizm, humanitar sahələrdə daha böyük uğurlar qazanmaq üçün geniş imkanlar var.

Milli Assambleyanın Sədri qeyd edib ki, parlamentlər səviyyəsində əlaqələrimizin daha da dərinləşməsi qarşıya qoyulan hədəflərə çatmaq baxımından əhəmiyyətlidir. Dostluq qrupları arasında təmasların mütəmadi xarakter alması münasibətlərimizin gələcək inkişafında əhəmiyyətli rol oynaya bilər.

Görüşün sonunda Azərbaycan Milli Məclisi ilə Pakistan Milli Assambleyası arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi Milli Məclisin Sədri Sahibə Qafarova və Pakistan Milli Assambleyasının Sədri Əsəd Qeysər imzalayıblar.

Milli Məclisin Sədri Sahibə Qafarova bu sənədin parlamentlərarası münasibətlərimizdə yeni səhifə açacağına əminliyini ifadə edib.

# Qarabağ Dirçəliş Fondunun Azərbaycanın xaricdəki səfirləri ilə birgə müzakirə sessiyası keçirilib

İyulun 28-də ADA Universitetində Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyevin Azərbaycanın xaricdəki səfirləri ilə görüşü olub.

Fondun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Respublikasını müxtəlif ölkələrdə təmsil edən 23 səfir, Milli Məclisin deputatı, Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının üzvü Fatma Yıldırım, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə, Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva və digər qonaqlar iştirak ediblər.

Görüşün xüsusi qonağı Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbəri Fuad Muradov olub.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev ilk olaraq Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı möhtəşəm Zəfərin Qarabağın onilliklər ərzində davam edən erməni işğalına son qoyaraq ölkəmizin ərazi bütövlüyünün təmin olunmasından, bu Qələbənin ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsi istiqamətində yeni reallıq yaratmasından danışıb.

R.Hacıyev Qarabağ Dirçəliş Fondunun yaradılması, əsas məqsəd və vəzifələri, hazırkı fəaliyyət istiqamətləri barədə məlumat verib, fondun yaradılmasının ideya müəllifinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın olduğunu bildirib, bir müddət əvvəl ictimaiyyətə təqdim edilən "Karabakh.Center" **(www.karabakh.center)** layihəsi haqqında ətraflı danışıb.

Sonra işğaldan azad edilmiş ərazilərimizdə dağıdılmış binaları, yerləyeksan olunmuş tarixi abidələri əks etdirən "Qarabağda Urbisid" adlı sənədli film və "Karabakh.Center" saytının təqdimat videosu nümayiş olunub.

Görüşdə Qarabağ Dirçəliş Fondunun beynəlxalq əməkdaşlıq imkanları, "Karabakh.Center" layihəsinin xarici ölkələrdə təbliği və xüsusilə erməni işğalı nəticəsində ərazilərimizə dəymiş zərər haqqında təşviqat işlərinin təşkili müzakirə edilib. Həmçinin səfirlərin təmsil olunduğu ölkələrdə və xaricdə yaşayan fəallarla səmərəli əməkdaşlığın qurulması, diasporumuzun Qarabağ üçün ianələrin köçürülməsinin imkanları haqqında fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbəri Fuad Muradov qeyd edib ki, xaricdə təşviqat işlərinin aparılması üçün uyğun platformaları və təşkilatları qruplaşdırmaq, ölkədən kənarda yaşayan soydaşlarımızın ianə edərək işğaldan azad olunmuş ərazilərimizin bərpası istiqamətində görülən tədbirlərə qoşulmasını təmin etmək çox vacibdir. O, uzun illərdir xaricdə yaşayan peşəkar diplomatların təcrübələrindən və tövsiyələrindən faydalanmağın vacibliyini bildirib.

Fuad Muradov tarixdə münaqişə zəminində dağıntıya məruz qalmış şəhərlərin təcrübələrinin öyrənilməsi və "şəhərlərin qardaşlaşması" məsələsinə toxunub.

Görüşün moderatoru, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə çıxışında İkinci Qarabağ müharibəsinə dair həqiqətlərin öyrənilməsinin, həmçinin Azərbaycana qarşı dünya mətbuatında tirajlanan saxtalaşdırılmış faktlara qarşı birgə səmərəli mübarizənin aparılmasının zəruriliyini vurğulayıb.

Müzakirə zamanı Azərbaycan Respublikasını müxtəlif ölkələrdə təmsil edən səfirlər təbliğat və təşviqat işləri ilə bağlı maraqlı məlumat və ideyalarını bölüşərək ianələrin toplanması, bərpa və quruculuq işlərinə soydaşlarımzın və investorların cəlb olunmasının zəruriliyini qeyd edib, bu məqsədlə nəzərdə tutduqları bir sıra təklifləri irəli sürüblər.

# Şuşa qardaş ölkələrin rəsmilərinin ziyarətgahına çevrilir

## Azərbaycan, Türkiyə və Pakistan İslam Respublikasının parlament sədrlərinin ölkəmizin Mədəniyyət Paytaxtına səfərləri də bunu təsdiqləyir




**Qarabağın zümrüd tacı Şuşa illər önceki kimi, yenə də qonaq-qaralıdır. İlin bütün fəsillərində qonaqlarını əsrarəngiz gözəllikləri ilə qarşılayan Şuşa 30 il bundan məhrum edilmişdi: İsa bulağı, Cıdır düzü doğma ayaq izlərinə, nəğməli, musiqili günlərinə həsrət qalmışdı...**

Nəhayət, bu da 44 günlük Vətən müharibəsinin zəfərindən sonrakı Şuşamız! Talanan talanıb, amma yağı düşmən onu digər işğal altında saxladığı kənd, qəsəbə və şəhərlərimiz kimi dağıda bilməyib. Müqəddəs ziyarətgahları, milli-mədəni varlığımızın simvollarına çevrilən abidələri gülləbaran etsə də, Şuşa qala olduğu üçün möhkəm dayanıb, yağıya baş endirməyib!

Şuşa yenə də əvvəlki növrağına qayıdır. Yeni Zəfər yolu Şuşamızı daha da gözəlləşən sabahına aparır. İşğaldan azad edildikdən sonra bu əsrarəngiz məkan ziyarətgaha çevrilib. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Qarabağımızın azadlıq simvoluna çevrilən Şuşaya ilk tarixi səfərindən başlayıb həmin ziyarət. Sonra "Xarıbülbül" Beynəlxalq musiqi festivalına Cıdır düzü meydan açdı. Azərbaycanda fəaliyyət göstərən xarici ölkə diplomatlarının bu cənnətməkana səfərləri başladı. Erməni vandalizminin dünyada ifşası belə səfərlərdən, ziyarətlərdən sonra daha da genişləndi.

Bu günlərdə qədim Şuşa yeni rəsmi qonaqlarını qəbul etdi. Azərbaycan Respublikasının Milli Məclisinin Sədri Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop, Pakistan İslam Respublikasının Milli Assambleyasının Sədri Əsəd Qeysər və nümayəndə heyətləri Şuşaya səfər etdilər.

Qonaqlar əvvəlcə Saatlı məscidində oldular. Onlara məlumat verildi ki, bu məscid də Ermənistanın işğalı dövründə Qarabağdakı digər dini və mədəni abidələr kimi dağıdılıb. İşğaldan azad edilən məsciddə hazırda yenidənqurma və bərpa işləri aparılır.

Parlament sədrləri Şəhər meydanına gedərək orada Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın tarixi Şuşa Bəyannaməsini imzaladıqları yerlə tanış oldular. Xatırladaq ki, imzalanan həmin sənəd iki qardaş və dost ölkə - Azərbaycanla Türkiyə arasında əməkdaşlığın bütün sahələrini əhatə etməklə iki qardaş ölkənin münasibətlərini ən yüksək zirvəyə qaldırdı.

Azərbaycan, Türkiyə və Pakistan parlamentlərinin sədrləri xalqımızın tanınmış ədəbi simaları, tarixi şəxsiyyətləri olan Xurşidbanu Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərini də ziyarət etdilər. İşğal zamanı ermənilərin həmin heykəlləri Ermənistana apararaq əritmək istədikləri qonaqların diqqətinə çatdırıldı. Bildirildi ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər alınaraq Azərbaycana gətirildi və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanıldı. Şuşa işğaldan azad olunduqdan sonra heykəllər öz yerlərinə qaytarıldı.

Şuşanın budəfəki qonaqları Xurşidbanu Natəvanın ermənilər tərəfindən dağıdılmış saray kompleksinə baxarkən öyrəndilər ki, lirik şeirlər müəllifinin evi işğaladək şəhərin memarlıq baxımından özünəməxsus tikililərindən hesab edilib. Natəvanın evi şəhərin ən gözəl binalarından biri olub. 1992-ci ildə Şuşa ermənilər tərəfindən işğal olunandan sonra bu ev də bilərəkdən, məqsədyönlü şəkildə dağıdılıb.

Türkiyə və Pakistan parlamentlərinin nümayəndə heyətlərinin üzvləri Yuxarı Gövhərağa məscidində onun tarixi, işğal dövründə ermənilərin burada törətdiyi dağıntılar, eyni zamanda, Şuşanın azad edilməsindən sonra ibadət ocağında aparılan təmir-bərpa işləri barədə məlumat aldıqdan sonra ziyarətgahda namaz qılıb, dua etdilər.

Pakistan İslam Respublikasının Milli Assambleyasının Sədri Əsəd Qeysər Şuşada bildirdi ki, onun ölkəsi azad edilmiş ərazilərdə turizmin inkişafına dəstək verməyə hazırdır: "... Burada aparılan quruculuq işləri ilə tanış olduq. Pakistan olaraq biz buradakı quruculuq işlərinə öz töhfəmizi verməyə şad olarıq. Hətta burada turizmin inkişafına da dəstək olmağa hazırıq. Biz bölgənin iqtisadi inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik. Çox şadam ki, Azərbaycan bu ərazilərdə genişmiqyaslı bərpa işləri həyata keçirir. Ümid edirəm ki, indi gördüyümüz bu ərazilər yaxın zamanlarda inkişaf etmiş bölgəyə çevriləcək".

Ali qonaq onu da qeyd etdi ki, buraya gəlməzdən əvvəl Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhəri haqqında eşitmişdik: "Bu gözəl və əsrarəngiz şəhəri öz gözlərimlə görmək məni həyəcanlandırdı. Amma təəssüflə demək istəyirəm ki, Şuşada gördüyümüz dağıntılar bizi məyus etdi. Özlərini bu şəhərin "sahibi" adlandıranlar buranın gözəlliyinə xələl gətiriblər. Bunu ancaq işğalçı zehniyyətli və işğalçı siyasət yürüdən ölkə edə bilər..."

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop işğaldan azad edilmiş bütün ərazilərdə bərpa-quruculuq işlərinin sürətlə aparıldığını dilə gətirərək dedi: "İnanıram ki, yaxın bir-iki ayda Şuşa şəhərində həyat öz axarına düşəcək. Şuşadan qayıdanda bərpa-quruculuq işlərinin getdiyi Füzuli şəhərində olacağıq... Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi, biz "bir millət, iki dövlət" olaraq hər zaman bir-birimizin yanındayıq. Məhz bu gözəl şəhərdə iki ölkənin başçıları arasında imzalanan Şuşa Bəyannaməsi münasibətlərimizi ən yüksək zirvəyə qaldırdı. Mən bunu yol xəritəsi kimi dəyərləndirirəm..."

Parlament nümayəndə heyətləri Şuşa Qala divarları ilə tanışlıqdan sonra Cıdır düzünə gələrək xatirə şəkli çəkdirib, buradan ana təbiətin açılan əsrarəngiz mənzərəsini heyranlıqla seyr ediblər.

Budur, Şuşanın illər boyu başıdumanlı dağlarında yeni dövr, xoş növraq başlayır, Şuşa müqəddəs ziyarətgaha çevrilir...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş keçirilib





İyulun 30-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin üzvü Anar Ələkbərov müsabiqənin qalibləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, müsabiqə qalibləri elan edildikdən sonra bu, onlarla keçirilən ilk görüşdür.

"Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev bu görüşün Heydər Əliyev Mərkəzində təşkilinin rəmzi məna daşıdığını bildirib. Qeyd edib ki, müsabiqə ölkə həyatı üçün önəmli olacaq idarəçiləri seçir. Bu çətin müsabiqədə qalib gəlmək iştirakçıların böyük potensialından xəbər verir.

Anar Ələkbərov tədbir iştirakçılarına Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın salamlarını çatdırıb. Vurğulayıb ki, Ulu Öndərin adını daşıyan bu Mərkəzdə "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşmək qürurvericidir.

Müsabiqənin əhəmiyyətindən danışan A.Ələkbərov gələcəkdə Azərbaycanda kadr potensialının yaradılması üçün peşəkar mütəxəssislərdən ibarət komanda formalaşdırılmasına diqqət çəkib, finala çıxmış 112 nəfərdən 27-nin qalib gəlməsinin çox sevindirici hal olduğunu deyib.

Vurğulanıb ki, Azərbaycan hökuməti təhsilə, gənclərimizin inkişafına, ölkə həyatının bütün sahələrində, o cümlədən iqtisadiyyat, təhsil, yüksək texnologiya, hərbi sahədə peşəkar kadrların formalaşmasına böyük dəstək göstərir, müvafiq istiqamətdə proqramlar icra edilir. Bu proqramlar Ümummilli Lider Heydər Əliyev tərəfindən hər zaman dəstəklənib. Prezident İlham Əliyev də bu layihələrə çox böyük önəm verir. Eyni zamanda, Heydər Əliyev Fondu gənclərimizə dəstək olmaq istiqamətində böyük layihələr həyata keçirir.

Qeyd olunub ki, müsabiqə qaliblərinin potensialından gələcəkdə istifadə edilməsi dövlət başçısının və birinci xanımın xüsusi diqqətindədir. Eyni zamanda, dövlətin bu qaliblərdən böyük gözləntiləri var. "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsində müvafiq məsələ ilə bağlı müzakirə aparılıb.

Ümummilli Lider Heydər Əliyevin vaxtilə gənclərin hərbi sahədə təhsilinə, bu istiqamətdə kadrların yetişməsinə xüsusi önəm verdiyini, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun torpaqlarımızı işğaldan azad etdiyini diqqətə çatdıran Anar Ələkbərov hazırda bu ərazilərdə genişmiqyaslı layihələrin icrasına başlanıldığını bildirib. Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələrdə, yaxud ölkəmizin digər bölgələrində müxtəlif proqramların reallaşdırılmasında "Yüksəliş" müsabiqəsinin qaliblərinin potensialından istifadə edilməsi nəzərdə tutulur. Bununla yanaşı, qaliblərin öz təklifləri də nəzərə alınacaq və mühüm təşəbbüslər hər zaman dəstəklənəcək. Həmçinin müsabiqə finalçılarının da potensialından istifadə olunacağı diqqətə çatdırılıb.

Fikir mübadiləsi formatında keçən tədbirdə müsabiqə qalibləri Orxan Zakirov, Orxan Qazı Zadə, Leyla Xəlilova-Rzazadə, Semral Əliyev, Xamis Seyranov görüşün təşkilinə görə təşəkkürlərini bildiriblər.

Çıxışlarda bu müsabiqənin davamlı olmasına dair fikirlər səsləndirilib.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının 21-51 yaşlı, ikiillik idarəçilik təcrübəsi olan ali təhsilli vətəndaşlarını əhatə edir. Müsabiqə beş mərhələdən - qeydiyyat, onlayn və əyani seçim, yarımfinal və finaldan ibarətdir.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il iyulun 26-da imzaladığı sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# *Fərəh ƏLİYEVA:* "Noyabrdan bəri azad edilmiş ərazilərdə görüləcək işlərin planlaşdırılması istiqamətində xeyli iş görülüb"

Hər günü Azərbaycan xalqının tarixinə böyük qəhrəmanlıq salnaməsi kimi düşən 44 günlük müharibə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun parlaq qələbəsi ilə başa çatıb.



Müharibə başa çatandan dərhal sonra dövlət başçısının tapşırığı ilə işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinə başlanılıb. Məhz bu yenidənqurma işləri ilə yenilməzlik ruhumuzu təsdiqləyən Böyük Qayıdış planına start verilib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində İdarələrarası Mərkəzin Elm, təhsil, mədəniyyət məsələləri üzrə İşçi Qrupunun rəhbəri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva söyləyib.

Prezident Administrasiyasının şöbə müdiri bildirib ki, bütün məsələləri əlaqələndirilmiş şəkildə həyata keçirmək üçün dövlət başçısının sərəncamı ilə yaradılan Əlaqələndirmə Qərargahı nəzdində bir neçə işçi qrupu, o cümlədən Elm, təhsil və mədəniyyət məsələləri üzrə İşçi Qrupu fəaliyyət göstərir. Noyabr ayından bəri azad edilmiş ərazilərdə görüləcək tədbirlərin planlaşdırılması, layihələndirilməsi istiqamətində xeyli iş görülüb. Bu işləri daha dəqiq aparmaq üçün işğaldan azad olunmuş torpaqlarda İşçi qruplarının iclasları keçirilir.

"Biz dünən Ağdamda kifayət qədər məlumat topladıq. Ağdamın tarixi yerlərini ziyarət etdik, mədəniyyət abidələrinə baxdıq, Üzərliktəpədə olduq. Yaxın günlərdə orada da qazıntı işlərinə başlanılacaq. Ağdamda gördüklərimiz bizi çox sarsıtdı. Vaxtilə Azərbaycanın ən gözəl, inkişaf etmiş şəhərindən, demək olar ki, heç nə qalmayıb. Amma biz inanırıq ki, Ağdam tarixi yaddaşımızda necə qalıbsa, gələcəkdə də çox parlaq şəhər olacaq", - deyən Fərəh Əliyeva qeyd edib ki, İşçi Qrupunun üzvləri Ağdamda Prezident İlham Əliyev tərəfindən təməli qoyulan Zəfər parkının, İşğal muzeyinin tikintisi işləri ilə tanış olub, fikir mübadiləsi aparıblar.

Ağdamdan sonra Şuşada olduqlarını bildirən İşçi Qrupunun rəhbəri bildirib: "Bildiyiniz kimi, Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır. Orada şəhər dövlət qoruğu yaradılıb. Şuşada yüzlərlə mədəni-dini abidə var. Bu abidələrin inventarlaşdırılması tamamilə başa çatıb. Biz onların hamısına baxış keçirmişik, Ağdamın da tarixi məhəllələrinə baxmışıq, orada artıq bərpa-quruculuq işləri aparılır. Bütün kompleks tədbirlər müzakirə olunub, onların hamısı toplanacaq və müəyyən rəy təqdim olunacaq".

Hadrutda Alban məbədində olduqlarını bildirən Prezident Administrasiyasının şöbə müdiri vurğulayıb ki, ermənilərin bütün ideologiyası nifrət, saxta tarix yaratmaq üzərində qurulub, özünün olmayanı özününküləşdirmək olub. Bu baxımdan, təbii ki, alimlərimizin, memarlarımızın, arxeoloqlarımızın üzərinə böyük iş düşür.

# İdarələrarası Mərkəzin üç İşçi Qrupunun Hadrutda birgə iclası olub





Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahı nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Şəhərsalma məsələləri üzrə, Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə və Elm, təhsil və mədəniyyət məsələləri üzrə İşçi qruplarının Xocavənd rayonunun Hadrut qəsəbəsində birgə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, Elm, təhsil və mədəniyyət məsələləri üzrə İşçi Qrupunun rəhbəri Fərəh Əliyeva, Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini, Şəhərsalma məsələləri üzrə İşçi Qrupunun rəhbəri Namiq Hümmətov, Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupunun rəhbəri Rəhman Hümmətov, İşçi qruplarına daxil olan nazirliklərin, agentliklərin və digər aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

İclasda işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, şəhərsalma, nəqliyyat və telekommunikasiya infrastrukturu layihələrinin icra vəziyyəti, mədəni irsin və tarixi-mədəniyyət abidələrinin qorunması, Ağdam və Şuşa şəhərlərində tarixi mədəniyyət abidələrinin bərpası məsələlərinə dair müzakirələr aparılıb.

# Ceyhun Bayramov Azərbaycanın diplomatik nümayəndəliklərinin rəhbərləri, o cümlədən yeni təyin olunmuş səfirləri ilə görüşüb





İyulun 30-da xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin rəhbərləri, o cümlədən yeni təyin olunmuş səfirləri ilə görüşüb. Görüşdə həmçinin Xarici İşlər Nazirliyinin rəhbər heyəti iştirak edib.

XİN Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov müstəqillik tariximizin ən önəmli dövrünü yaşadığımızı qeyd edərək, ərazi bütövlüyümüzün təmin olunması uğrunda apardığımız Vətən müharibəsi nəticəsində şanlı Zəfərin qazanılması münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq ifadə edib, habelə qüdrətli Ordumuza fəxarətlə istinad edərək, Vətənimizin bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ruhu önündə baş əydiyimizi vurğulayıb.

Nazir yeni səfir təyinatları münasibətilə həmkarlarını təbrik edib.

Ceyhun Bayramov müasir dövrün çağırışları fonunda hazırkı postmünaqişə mərhələsində ölkəmizin milli maraqları əsasında dövlət başçısının müəyyənləşdirdiyi xarici siyasət kursu çərçivəsində qarşımızda duran əsas məqsəd və vəzifələr, o cümlədən qazanılmış Zəfərin möhkəmləndirilməsindən bəhs edib. Nazir dinamik şəkildə dəyişən mövcud vəziyyətdə Azərbaycanın diplomatik nümayəndəliklərinin əsas fəaliyyət istiqamətləri barədə danışıb.

Ceyhun Bayramov, eyni zamanda, diplomatik nümayəndəliklərin rəhbərlərinə müxtəlif istiqamətlərdə fəaliyyət səmərəliliyinin artırılması üzrə görülmüş işlər barədə məlumat verib, onlara bu xüsusda tövsiyə və tapşırıqlarını çatdırıb.

# İdarələrarası Mərkəzin İşçi Qrupunun üzvləri Füzuli Beynəlxalq Hava Limanında olublar





Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin İşçi Qrupunun üzvləri Füzuli Beynəlxalq Hava Limanında görülən işlərə baxış keçirib.

İlk sınaq uçuşunun sentyabrın 5-də yerinə yetirilməsi nəzərdə tutulan hava limanında işlər davam etdirilir. Aerovağzal binasının tikintisində beton işləri təxminən 80 faiz yekunlaşıb. Liman kompleksinin bu ilin sonuna kimi tam istifadəyə verilməsi proqnozlaşdırılır.

AZƏRTAC xəbər verir ki, bu sözləri AZAL-ın nümayəndəsi Valeh Əmiraslanov Füzulidə jurnalistlərə açıqlamasında bildirib.

O qeyd edib ki, hava gəmilərinin qəbul olunması üçün uzunluğu 3 kilometr, eni 60 metr olan uçuş-enmə zolağının torpaq yatağı tamamlanıb, hazırda isə asfalt-beton örtüyü döşənir. Həmçinin sahəsi 60 min kvadratmetr olan, 8 hava gəmisinin dayanacağı perronun torpaq yatağında işlər tamamlanıb. Terminal binasında dəmir-beton konstruksiyaların quraşdırılması işləri 100 faiz icra edilib.

Yaxınlıqda iki asfalt zavodu inşa olunub. Limanın elektrik təminatı üçün elektrik xətti çəkilərək transformator yarımstansiyası quraşdırılıb. Bundan başqa, iki ədəd artezian quyusu qazılıb və suyun analizləri aparılıb. Hava limanı 400 tona qədər ağırlığı olan hava gəmilərini qəbul edə biləcək.

Qeyd edək ki, hazırda Füzuli, Zəngilan və Laçın hava limanlarına uçuşların beynəlxalq standartlara uyğun təmin olunması üçün yeni beynəlxalq hava dəhlizlərinin müəyyənləşdirilməsi üzrə işlər davam etdirilir.

***

Füzuliyə səfər çərçivəsində işçi qrupun üzvləri Füzuli-Hadrut yolunda mina-təmizləmə işlərinə də baxış keçiriblər. ANAMA-nın əməkdaşı İdris İsmayılov məlumat verərək bildirib ki, hazırda nəqliyyat infrastrukturu üzrə ərazilərin minalardan təmizlənməsi həyata keçirilir. Bugünə kimi 3500 hektar ərazidən 20 minə yaxın mina və partlamamış silah-sursat aşkar edilərək zərərsizləşdirilib.

İşçi qrupun üzvləri minaların partladılması prosesini də izləyiblər.

# Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin İşçi qruplarının üzvləri Şuşaya səfər ediblər

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə və Şəhərsalma məsələləri üzrə İşçi qruplarının üzvləri Şuşaya səfər ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə işçi qruplarının üzvlərinə Şuşa şəhərinin baş planı, nəqliyyat və mühəndis kommunikasiya infrastrukturu barədə məlumat verilib.

İşçi qrupların üzvləri, həmçinin Şuşa şəhərində Şuşa Radio-Televiziya Yayım Stansiyasına, Şuşa Rabitə Qovşağının binasına, eləcə də şəhərdə mövcud olan telekommunikasiya infrastrukturuna, Şuşa Avtovağzalının binasına və mövcud yol infrastrukturuna baxış keçirəcəklər.

# Azərbaycanın İkinci Qarabağ müharibəsindəki şanlı Qələbəsinə həsr olunmuş "Zəfər Salnaməsi" kitabı hazırlanıb

Əvvəli 1-ci səh.

Kitabı oxuyarkən Zəfərin əsas formulu kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dönməz siyasi iradəsi, proseslərə strateji baxışı və sistemli yanaşması, son 17 ildə yürütdüyü daxili və xarici siyasət, ölkənin illər ərzində toplanmış iqtisadi gücünün siyasi, diplomatik və hərbi gücə transformasiyası, erməni işğalı ilə barışmayan xalqımızın və yetişmiş gənc nəslin torpaqlarımızı azad etmək əzmi, Prezident-Xalq-Ordu birliyinin vahid dəmir yumruqda birləşdiyini görürük.

Son illər baş vermiş hadisələr, proseslərin intensivliyi və mahiyyəti Azərbaycan Prezidentinin bütün fəaliyyətinin məhz torpaqların işğaldan azad olunmasına yönəldiyini bir daha nümayiş etdirir.

Proseslərin gedişini və ardıcıllığını daha müfəssəl təqdim etmək üçün kitab üç hissəyə bölünüb.

"Ərəfə" adlanan birinci hissə 2016-cı il Aprel döyüşlərindən 2020-ci ilin sentyabrınadək olan dövrü əhatə edir. Bu müddət ərzində Azərbaycanın şanlı Qələbəsinə aparan addımlar təsvir edilir, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordunun möhkəmləndirilməsi, ölkənin iqtisadi gücünün daha da artırılması, Azərbaycanın haqlı mövqeyinin beynəlxalq səviyyədə ortaya qoyulması istiqamətində atdığı ardıcıl və davamlı addımlar əks olunur.

"Vətən müharibəsi" adlı ikinci hissə 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan qısa dövr ərzində həm döyüş meydanında, həm arxa cəbhədə, həm diplomatiya müstəvisində və həm də informasiya məkanında Azərbaycanı Qələbəyə aparan mübarizə əks olunur. Burada Ali Baş Komandanın dünya liderləri ilə danışıqlar zamanı, xarici media nümayəndələrinə verilən müsahibələrdə prinsipial mövqeyi, Azərbaycanı 44 gün ərzində Qələbəyə aparan yol təsvir olunur.




Sonuncu, "Qayıdış" adlı hissədə isə 30 illik işğalın real nəticələri işıqlandırılır. Ermənistan tərəfindən Azərbaycan torpaqlarında həyata keçirilmiş urbisid, ekosid, mədəniyyət və dini abidələrin məhv edilməsi və digər qanunsuz əməllərin nəticələri təqdim olunur. Bakının Azadlıq meydanında Qələbəyə həsr olunmuş Zəfər paradına xüsusi yer ayrılır, habelə işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Prezidentinin qısa müddət ərzində start verdiyi quruculuq və bərpa işləri barədə məlumat təqdim edilir. "Zəfər Salnaməsi" xronika formatında olduğu üçün Böyük Qayıdışla bağlı nəşrin davamı nəzərdə tutulur.

Daxili və xarici oxucu auditoriyasını əhatə etmək üçün xronika üç dildə - Azərbaycan, ingilis və rus dillərində tərtib edilib. Burada "IRS Publishing House", Müdafiə Nazirliyi və AZƏRTAC-ın çəkdiyi fotoşəkillərdən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Geodeziya və Kartoqrafiya" MMC-nin xəritələrindən istifadə olunub.

Kitab Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının və "IRS Publishing House"un birgə səyləri ilə hazırlanıb, "IRS Publishing House" tərəfindən nəşr edilib, PAŞA Həyat Sığorta ASC nəşrə yaxından dəstək göstərib.

# Müdafiə naziri zabit heyətinin ixtisasartırma və təkmilləşdirmə kurslarının gedişi ilə maraqlanıb





**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti zabit heyətinin ixtisasartırma və təkmilləşdirmə kurslarının gedişi ilə maraqlanmaq üçün ümumqoşun poliqonlarından birinə gəliblər.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Zakir Həsənova təhsil prosesi çərçivəsində ən yeni nəsil texnikanın istifadəsi üzrə keçirilən dərslərə xüsusi diqqət yetirildiyi məruzə olunub. Bildirilib ki, kurslar zamanı hərbi qulluqçular qoşunların silahlanmasında olan müasir döyüş vasitələrinin taktiki-texniki xüsusiyyətlərini və istifadə qaydalarını öyrənirlər.

Eyni zamanda, hərbi qulluqçular silah və hərbi texnikanın digər müasir nümunələrini də öyrənir, taktikada və döyüş hazırlığının digər fənlərində öz vərdişlərini təkmilləşdirirlər. Qeyd edilib ki, kurslara cəlb olunan gənc zabitlər Vətən müharibəsində iştirak etmiş, döyüş təcrübəsinə malik hərbi qulluqçulardır.

Sonda müdafiə naziri hərbi qulluqçuların tank və piyada döyüş maşınlarında yerinə yetirdikləri təlim tapşırıqlarını və atış məşğələlərini izləyib.

# Qarabağın dirçəlişi - Azərbaycanın yüksəlişi

Əvvəli 1-ci səh.

Həmçinin növbəti onillikdə iqtisadi artımın davamlı olmasını, milli iqtisadiyyatın daha da şaxələndirilməsini təmin etmək baxımından tamamilə yeni imkanlar açır. Milli Prioritetlər ölkəmizin bütün sahələrdə sürətli inkişafına təkan verən vəzifələrin müəyyən olunması baxımından xüsusi əhəmiyyətə malikdir.

Mütəxəssislər Milli Prioritetləri mühüm dövlət konsepsiyası adlandırırlar. Qeyd edilir ki, sənəddə nəzərdə tutulan tədbirlər həddindən artıq geniş və çoxşaxəlidir. Bu sənəd həmçinin bir çox dövlət orqanları qarşısında mühüm vəzifələr qoyur. Ona görə də Milli Prioritetlərə əsasən, müxtəlif proqram və layihələr hazırlanmaqdadır.

### Böyük qayıdış və "yaşıl artım" ölkəsi

İkinci Qarabağ müharibəsində şanlı qələbədən sonra yaranan reallıq göz önündədir. Qarşıya qoyulan bir nömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaq, bir sözlə, Qarabağı yenidən cənnətməkana çevirməkdir.

Prezident beş prioritetin iki bəndini (işğaldan azad olunmuş ərazilərə böyük qayıdış və təmiz ətraf mühit, "yaşıl artım" ölkəsi) məhz bu istiqamətə uyğun müəyyənləşdirib. Çünki işğaldan azad olunmuş ərazilər böyük iqtisadi potensiala malikdir və təbii ki, Azərbaycan bu potensialdan maksimum yararlana bilər. Bu iki istiqamətin uğurlu icrası da onu deməyə əsas verir ki, tezliklə Qarabağın iqtisadi imkanlarından əldə ediləcək dividendlər ölkənin qüdrətinin daha da yüksəlişi üçün real zəmin yarada bilər. Çünki Qarabağda dağ-mədən sənayesi, metallurgiya, yeyinti sənayesi, trikotaj, turizm, aqrar və "yaşıl enerji" kimi sahələrin böyük inkişaf potensialı var. Yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması isə ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına da əhəmiyyətli təkan verəcək.

Dövlət büdcəsi hesabına Qarabağda 2,2 milyard manatlıq sərmayənin qoyuluşu da təsdiq edir ki, işğaldan azad edilmiş ərazilərdə yaradılacaq iqtisadi infrastrukturlar dayanıqlı inkişafa böyük imkan yaradacaq. Eyni zamanda xarici dövlətlərin iri şirkətləri də bu gün işğaldan azad edilmiş torpaqlarda investisiya yatırımına böyük maraq göstərirlər. Artıq Türkiyə, İtaliya, Böyük Britaniya, Pakistan, İsrail kimi dövlətlərdən Qarabağın bərpasına sərmayə axını başlayıb.

Hazırda işğaldan azad olunmuş ərazilərimizdə inşa olunan mühüm infrastrukturlara nəzər yetirsək görərik ki, bu gün Qarabağda Bərdə-Ağdam avtomobil yolu, Zəfər yolu (sentyabr ayında asfalt döşənməsi də başa çatacaq), Füzuli-Şuşa magistral yolu, Horadiz-Ağbənd yolu, Zəngilan-Qubadlı-Laçın yolu, Füzuli-Hadrut, Füzuli-Cəbrayıl yolları, Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı üzrə yollar çəkilir. Həmçinin Kəlbəcər, Laçın rayonlarında hərbi əhəmiyyətli yollar çəkilir.

Prezident İlham Əliyev iyulun 28-də Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncama əsasən sözügedən iki rayon ərazisində yol infrastrukturunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən 10 milyon manat ayrılıb.

Üç aeroport tikilir. Ağdam şəhəri Baş Plana uyğun olaraq yenidən qurulur. Füzulinin, Cəbrayılın baş planlarının ilkin versiyası Prezidentə təqdim edilib. İndi müfəssəl plan üzərində iş aparılır. Yaxın aylarda Füzuli və Cəbrayıl şəhərlərinin baş planı ictimaiyyətə təqdim ediləcək. Zəngilan şəhərinin baş planının hazırlanması prosesinə artıq başlanılıb.

Prezident İlham Əliyev Daşkəsənə səfəri çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibədə vurğulayıb ki, ilin sonuna qədər azad edilmiş torpaqlarda - həm Qarabağda, həm Şərqi Zəngəzurda bütün elektrik təsərrüfatı qurulacaq. Günəş elektrik stansiyası, yeni ötürücü xətlər, transformatorlar, yarımstansiyalar, elektrik stansiyaları tikiləcək.

Onu da vurğulayaq ki, Azərbaycan bütün bu işləri heç kimdən yardm almadan öz hesabına edir. Xarici şirkətlər bu işlərə cəlb edilib, amma podratçı kimi. Bütün vəsait dövlət büdcəsindən xərclənir.

Əminliklə deyə bilərik ki, İlham Əliyevin müəyyən etdiyi Milli Prioritetlər qarşıdakı 10 il ərzində ölkəmizdə müşahidə olunan sosial-iqtisadi inkişafı tamamilə və keyfiyyətcə yeni mərhələyə yüksəldəcək və Azərbaycan inkişaf etmiş ölkələr sırasında layiqli yerini daha da möhkəmləndirəcək.

### Qarabağın inkişaf strategiyası - iqtisadi rayonların yeni bölgüsü

İlham Əliyevin iyulun 7-də iqtisadi rayonların yeni bölgü ilə bağlı imzaladığı fərman da uzaqgörən iqtisadi və siyasi planın tərkib hissəsi oldu. Sənəddə vurğulanır ki, hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik olan qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacib idi.

Sənədə əsasən bu məqsədlə yeni iqtisadi rayonlar yaradıldı - Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları).

Ümumilikdə iqtisadi rayonların sayı 10-dan 14-ə yüksəldi. Çünki Azərbaycan iqtisadiyyatı üç dəfədən çox böyüyüb, iqtisadiyyatın regional və sektoral strukturu dəyişib, habelə Qarabağın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılması perspektivi yeni reallıqlar yaradıb.

İqtisadçılar hesab edirlər ki, yeni reallıq iqtisadi rayonlaşdırmaya yeni yanaşmanı əsaslandırır. Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü, xüsusən Qarabağın bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına töhfə verəcək. Ölkədə iqtisadi idarəetmədə çevikliyin təmin olunmasına, institusional islahatlar aparılmasına xidmət edəcək. Xüsusən də iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyini artıracaq. Regionların sosial-iqtisadi inkişaf proqramı, eyni zamanda Qarabağın inkişaf strategiyası da iqtisadi rayonların yeni bölgüsünə uyğunlaşdırılacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Bir qrup xarici jurnalist "Füzuli" yarımstansiyasında olub







İyulun 30-da Yaponiya, İspaniya, İtaliya, Bolqarıstan və İordaniyadan olan jurnalistlər işğaldan azad edilmiş ərazilərə səfər çərçivəsində "Füzuli" yarımstansiyasının fəaliyyəti ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, jurnalistlərə yarımstansiya haqqında məlumat verilib.

Bildirilib ki, 110/35/10 kilovoltluq yarımstansiya Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına əsasən tikilib. Yeni aeroportun və Zəfər yolunun yaxınlığında yerləşən bu yarımstansiya hava limanı, Füzuli şəhəri və ətraf kəndlərdə inşa olunacaq bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

Qeyd edilib ki, yarımstansiya və yeni İdarəetmə Mərkəzi ən müasir tələblərə cavab verən avadanlıqla təchiz olunub, komplektləşdirilib. Jurnalistlərin diqqətinə çatdırılıb ki, İdarəetmə Mərkəzində texniki imkanlarla yanaşı, əməkdaşların səmərəli çalışmaları və istirahəti üçün hərtərəfli şərait yaradılıb.

## Xarici jurnalistlər Füzulidə ermənilərin basdırdıqları minaların zərərsizləşdirilməsi prosesini izləyiblər



Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən Füzuli rayonu ərazisində həyata keçirilən minatəmizləmə əməliyyatları zamanı aşkar edilən mina və partlamamış silah-sursatlar zərərsizləşdirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Füzulinin Qarğabazarı deyilən ərazisində ANAMA nümayəndələri ilə rayonda səfərdə olan Yaponiya, İspaniya, İtaliya, Bolqarıstan və İordaniya jurnalistləri arasında görüş keçirilib. Görüşdə bildirilib ki, Qarğabazarı ərazisində ermənilər tərəfindən basdırılan 142 ədəd mina və partlamamış silah-sursat aşkarlanıb, 6200 kvadratmetr sahə xüsusi təhlükəsizlik qaydalarına əməl olunmaqla təmizlənib. Minatəmizləmə prosesi ANAMA-nın əməkdaşları tərəfindən, həmçinin xüsusi texnikalar və təlim keçmiş itlər vasitəsilə aparılır. Ümumilikdə indiyədək Füzuli rayonunda 177 min 736 kvadratmetr ərazinin minalardan və partlamamış digər sursatlardan təmizlənməsi təmin olunub.

Sonra xarici media nümayəndələri aşkarlanmış minaların və partlamamış silah-sursatın zərərsizləşdirilməsi prosesini izləyiblər.

## Xarici jurnalistlər Cəbrayılda erməni vandalizminin izləri ilə tanış olublar



İyulun 30-da Azərbaycanın işğaldan azad edilmiş ərazilərə səfər edən xarici jurnalistlər ermənilər tərəfindən Cəbrayıl rayonu ərazisində törədilən dağıntılarla tanış olublar.

AZƏRTAC xəbər verir ki, jurnalistlər əvvəlcə Cəbrayıl rayonunda yerləşən "Dostluq" bulağını ziyarət ediblər. Onlara bulağın tarixi haqqında məlumat verilib. Bildirilib ki, vaxtilə Cəbrayılın ən çox ziyarət edilən məkanlarından olan bulaq rayonun işğalından sonra digər abidələr kimi ermənilər tərəfindən dağıdılıb.

Sonra media nümayəndələri Cəbrayıl şəhər qəbiristanlığında olub, dağıdılmış dini-tarixi abidələr barədə ətraflı məlumat alıblar. Bildirilib ki, ermənilər qəbiristanları da vandalizmə məruz qoyub, qəbirləri qazaraq meyitləri çıxarıb, həmçinin müsəlman dini abidələrini təhqir ediblər.

Daha sonra jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

# Batabat yaylağı və Ağbulaqla tanışlıq Zəfər Düşərgəsinin iştirakçılarında xoş təəssüratlar yaradıb

**Azərbaycan və onun Naxçıvan Muxtar Respublikasının Gənclər fondlarının, Türkiyə Gənclik Vəqfinin birgə təşkilatçılığı, ümumilikdə 200-dən çox gəncin iştirakı ilə muxtar respublikada keçirilən "Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi" rəngarəng və bir-birindən yaddaqalan tədbirlərlə davam edir. AZƏRTAC xəbər verir ki, proqram çərçivəsində gənclər Şahbuz rayonunun ərazisində yerləşən Batabat yaylağında olublar.**

Ağbulaq İstirahət Mərkəzində qeyd olunub ki, Şahbuz rayonunun Ağbulaq kəndi ölkəmizdə kompleks turizm infrastrukturunun tətbiq olunduğu ilk kənddir. Əlverişli təbii-coğrafi şəraiti burada turizmin bir çox növünün inkişafına imkan verir. "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülüb, Ali Məclis Sədrinin 2018-ci il 29 noyabr tarixli sərəncamı ilə Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılıb. Bu il fevralın 17-də Ağbulaq Xizək Mərkəzi istifadəyə verilib. Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşməsi, qış aylarında qar ehtiyatının çox olması və dağ-xizək mərkəzi üçün müvafiq landşafta malik olması qış turizmi üçün geniş imkanlar açır.

Türkiyə Respublikasının Diyarbəkir vilayətindən düşərgəyə qatılan Mərvə Özkaya təəssüratları barədə danışaraq deyib ki, Azərbaycana, o cümlədən də Naxçıvana ilk dəfədir səfər edir. Gəldiyi gündən burada onlara göstərilən qayğıdan çox məmnundur. O deyib: "Səfərimizin əsas məqsədi qardaş ölkənin gəncləri ilə bir araya gəlmək, Zəfər tariximizdən sonrakı əlaqələrimizi daha da möhkəmləndirməkdir. Səfər zamanı Naxçıvanın tarixi yerlərini, muzeylərini gəzdik, qədim tarixiniz haqqında ətraflı məlumat aldıq. Zorbulaq haqqında isə deyirlər ki, soyuqluğundan onun suyunda əlini davamlı saxlaya bilmirsən. Biz də iştirakçılar ilə bunu yoxladıq. Hətta yarış da keçirdik. Əlini daha çox suda saxlayan qalib elan olundu".

Ərzincandan gələn Firdevs Karadağ isə vurğulayıb ki, Naxçıvan başdan-başa təbiət muzeyidir. Xüsusilə havası çox gözəldir. Naxçıvan şəhəri isə təmiz və səliqəlidir. Ağbulaq kimi gözəl bir yerdə belə bir şəraitin yaradılması dövlətinizin insanlara göstərdiyi qayğının nümunəsidir. Xizək mərkəzi və kanat xətti mükəmməldir, təmiz dağ havasının təsiri ilə bu cür möhtəşəm yerdə istirahət etmək çox gözəldir. Əminəm ki, Vətənimizə qayıdanda yaxınlarımıza gəlib Naxçıvanı görməyi tövsiyə edəcəyik.

Gəncə Şəhər Gənclərin İnkişaf və Karyera Mərkəzinin əməkdaşı Həsən Xıdırov isə Türkiyə və Azərbaycan dostluğunun gənclərin qarşısında açdığı geniş imkanlar və perspektivlərdən danışaraq bildirib ki, tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksəksəviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbəri tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Sözsüz ki, bu dostluq əlaqəsinin ən gözəl nəticəsini məhz Zəfər düşərgəsində iştirak edən gənclərin timsalında görmək mümkündür.

# İnsan alverinin qurbanı olma!

**İyulun 30-u İnsan Alverinə Qarşı Beynəlxalq Mübarizə Günüdür. İnsan alveri müasir dövrün ən aktual problemlərindən biridir.**

AZƏRTAC xəbər verir ki, ölkəmizdə bu sosial bəlaya qarşı uğurlu mübarizə aparılır, xüsusilə əhali arasında geniş maarifləndirmə işləri mütəmadi qaydada həyata keçirilir.

Belə tədbirlərdən biri kimi, 30 iyul - İnsan Alverinə Qarşı Beynəlxalq Mübarizə Günü ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən paylaşım edilib.

Paylaşımda bildirilib: "Azərbaycan Respublikasının qanunvericiliyinə görə, insan alveri dedikdə, zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi başa düşülür. İnsan alverinin qurbanı olma! #azgenprosecutor#başprokurorluq#insanalverinəqarşımübarizəgünü #insanalverininqurbanıolma".

# “Tarixi öz qanımla yazacağam” deyən şəhid kəşfiyyatçı

Şəhid Famil Pirvələdov Vətən müharibəsində Füzuli, Cəbrayıl və Hadrut cəbhələrində qəhrəmanlıqla döyüşüb. Qorxmaz döyüşçü göstərdiyi şücaətə görə, ölümündən sonra üç medalla təltif edilib.





AZƏRTAC xəbər verir ki, Famil Teyfur oğlu Pirvələdov 1995-ci il mayın 30-da Qusar rayonunun Yuxarı Zeyxur kəndində anadan olub. Ailədə iki qardaş, bir bacı olublar. Famil evin sonbeşiyi idi. Uşaq yaşlarından torpağa, Vətənə bağlı olan Famil arzusunda olduğu hərbçi peşəsinə yiyələnib. Müddətdən artıq xidmət edən hərbi qulluqçu Vətən müharibəsinin ilk günlərindən həmlə qruplarında yer alır. Qusarlı kəşfiyyatçı Füzuli, Cəbrayıl, Hadrut istiqamətində gedən əməliyyatlarda düşmənə qan uddurub.

“Famil Füzulinin Seyidəhmədli kəndində şəhid olub. Onun nəşini 10 gün döyüş gedən ərazidən çıxarmaq mümkün olmayıb. Oktyabrın 31-də dəfn etmişik. Bütün şəhidlərə Allah rəhmət eləsin. Qazilərimizə Allahdan şəfa diləyirəm. Oğlumla fəxr edirəm”, - deyə şəhidin atası Teyfur Pirvələdov söyləyib.

Famil Vətən müharibəsi başlamazdan əvvəl evə gəlib, ailəsi ilə halallaşaraq bir neçə aylıq təlimlərə gedəcəyini deyib.

“Arzusu hərbçi olmaq idi. Qardaşı müəllimdir. Famil də yaxşı oxuyurdu. Amma hərbçi olmağı qarşısına məqsəd qoymuşdu. Məktəb vaxtı sinif yoldaşlarının “Xatirə” dəftərlərində də hərbçi olacağını qeyd edib. Vətən müharibəsindən əvvəl, avqust ayında məzuniyyətə gəlmişdi 10 günlük. Bir dəfə nə isə yazı yazırdı. Mən də ona dedim ki, tarixi də qeyd elə. Famil gülərək cavab verdi ki, ana, mən tarixi qanımla yazacağam. Müharibə başlayandan sonra da əlaqə saxlayırdıq. Sonuncu dəfə oktyabrın 8-i danışdıq. Səhər tezdən zəng etmişdi. Bildirdi ki, düşmənin üzərinə gedirik. Füzulidə şiddətli döyüşlərdə iştirak edib. Həmin döyüşlərdə də şəhidlik zirvəsinə ucalıb”, - deyə Familin anası Səmayə Pirvələdova söyləyib.

Famil qardaşı ilə danışanda düşmənin döyüş texnikalarını, silah-sursatını qoyub qaçdığını, erməni hərbçilərinin müdafiə mövqelərini yarıb irəlilədiklərini, qələbənin yaxınlaşdığını söyləyib.

“Famil cəsur, qorxmaz döyüşçü olub. Onunla danışanda dedim ki, könüllü yazılıb cəbhəyə gəlməyə hazırlaşıram. O isə gülərək cavab verdi ki, ehtiyac yoxdur, sən gələnədək torpaqlarımızı düşməndən tamamilə azad edəcəyik”, - deyə şəhidin qardaşı Zamiq Pirəliyev söyləyib. Azərbaycan Ordusunun kiçik çavuşu Famil Pirvələdov ölümündən sonra “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalı ilə təltif edilib.

# “Elə yaşamalısan ki, sonra peşman olmayasan”

## Vətən fədaisi Vüqar Ələkbərovun nə vaxtsa dostlarına dediyi bu sözlər indi məzarına həkk olunub

Vətən müharibəsində şücaət göstərərək torpaqlarımızı işğaldan azad edən igid oğulların şərəfli döyüş yolunu öyrənmək və geniş təbliğ etmək hər birimizin vətənpərvərlik borcudur. Vətən uğrunda son damla qanınadək döyüşərək şəhidlik məqamına yüksəlmiş cəsur hərbi qulluqçularımızdan biri də gizir Vüqar Ələkbərovdur.



Gizir Vüqar Ələkbərov 1994-cü il noyabrın 16-da Ucar rayonunun Qazyan kəndində anadan olub. Şaynat və Telman Ələkbərovların ailəsinin ilki, iki oğul övladından biri idi. Orta təhsilini Qazyan kənd 2 saylı tam orta məktəbində almış, 9-cu sinfi bitirdikdən sonra Göyçay şəhərindəki Dövlət İdarəetmə və Texnologiya Kollecinə qəbul olunmuşdu. 2014-cü ildə kolleci “Nəqliyyat vasitələrinin təmiri və servis xidməti” ixtisası üzrə bitirmişdi. Müddətli həqiqi hərbi xidməti 2014-cü ilin iyul ayından 2016-cı ilin yanvar ayınadək Daxili Qoşunların Bakıda, Biləcəri qəsəbəsində yerləşən “N” saylı hərbi hissəsində keçmişdi. Sonra qoşunların Bərdə rayonundakı “N” saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilərək Vətən qarşısında şərəfli borcunu yerinə yetirməyə davam etmişdi. Nümunəvi xidməti və yüksək hərbi intizamı ilə etimadı doğrultmuş, hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılmışdı. Məhz buna görə də 2017-ci ilin fevral ayından etibarən qoşunların Gəncə şəhərində yerləşən “N” saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müxtəlif vəzifələrdə xidmətini davam etdirən silahdaşımız 2018-ci ilin may ayından atəş təminatı qrupunda iriçaplı pulemyot yarımqrupunun komandiri vəzifəsinə irəli çəkilmişdi. Tələbkarlığı və qayğıkeşliyi sayəsində tabeliyindəki şəxsi heyətin rəğbətini qazanan Vüqarın bir komandir kimi də fəaliyyəti hər zaman müsbət qiymətləndirilirdi.

“N” saylı hərbi hissənin “Pələng” şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində qrup komandiri olmuş, 3-cü dərəcəli “Rəşadət” ordeni, “Şuşanın azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilmiş baş leytenant Xəqani Məmmədov (hazırda qoşunların Bərdə rayonundakı “N” saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirir) iki hərbi qulluqçunun - gizir Vüqar Ələkbərov və çavuş Cəlil Xeyrullayevin şəhidlik zirvəsinə yüksəldiyini qeyd edərək, onların döyüşlər zamanı göstərdikləri şücaətlə qürur duyduğunu bildirir. Söyləyir ki, Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlarda fəal iştirak edən gizir V.Ələkbərov Murovdağ silsiləsi, Cəbrayıl, Füzuli rayonlarının və Xocavənd rayonunun Hadrut qəsəbəsi ətrafındakı bir sıra yaşayış məntəqələrinin və strateji əhəmiyyətli yüksəkliklərin azad olunmasında, eləcə də düşmənin xeyli sayda canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsində böyük şücaət göstərib.

2020-ci il oktyabrın 12-də Füzuli-Cəbrayıl rayonları istiqamətində gedən döyüş Vüqar üçün sonuncu oldu. Onunla birgə bu döyüşdə iştirak etmiş “Pələng” xüsusi təyinatlı dəstəsində yarımqrup komandiri, “Şuşanın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif edilmiş gizir Pərvin Rəhimli vətənpərvər silahdaşının qəhrəmanlığını heç zaman unutmayacağını deyir: “Murovdağ silsiləsindən başlayaraq hər bir döyüşdə Vüqarın necə mərd insan olduğunu gördüm. Döyüş meydanında ermənilərin başına od-alov yağdırmaqla bərabər, gözünü qırpmadan yaralanmış silahdaşlarımızın, eləcə də şəhidlərimizin cəsədlərinin mərmi “yağış”ı altından çıxarılmasında, yaralılara ilk tibbi yardım göstərilməsində, çətin tapşırıqların yerinə yetirilməsində hər zaman fərqlənirdi. Sonuncu tapşırığımız düşmənin Füzuli-Cəbrayıl rayonları istiqamətində strateji cəhətdən əlverişli ərazidə mövqelənmiş top batareyasını məhv etmək idi. Aldığımız kəşfiyyat məlumatına əsasən, burada ermənilərin 8 ədəd 150 millimetrlik topu və xeyli sayda canlı qüvvəsi cəmləşmişdi. Bizim qrup atəş dəstəyi ilə müxtəlif istiqamətlərdən düşmənin xeyli sayda canlı qüvvəsini məhv edə-edə irəliləyərək onun əsas mövqeyinə yaxınlaşmışdı. Ermənilərlə aramızda 10-15 metrə qədər məsafə vardı. Şiddətli döyüş gedirdi. Bu vaxt səngərdə uzanmış düşmən pulemyotçusunun ayağa qalxaraq biz olan istiqamətə atdığı güllələrdən biri Vüqarın sinəsindən dəydi... Biz isə həmin erməni pulemyotçusu da daxil olmaqla onların bütün şəxsi heyətini və toplarını məhv edib mövqelərini ələ keçirdik, düşməndən şəhid silahdaşımızın intiqamını aldıq”.

Gizir V.Ələkbərov 2020-ci il oktyabrın 15-də doğulduğu kəndin qəbiristanlığında dəfn olundu. Subay idi, şəhidliyindən dörd ay öncə nişanlanmışdı. Arzusu müharibə xalqımızın qələbəsi ilə bitdikdən sonra toy edib ailə həyatı qurmaq və xoşbəxt ömür sürmək idi...

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir Ələkbərov Vüqar Telman oğlu (ölümündən sonra) “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

Vüqar nə vaxtsa demişdi: “Həyat çox qısadır. Bu həyatı insan kimi yaşamaq lazımdır. Elə yaşamaq lazımdır ki, sonra peşman olmayasan”. İndi bu sözlər onun məzar daşına həkk olunub... Vətən uğrunda şəhidlik zirvəsinə ucalan Vüqar kimi igid oğullarımızın hər biri yaşadıqları qısa, lakin şərəfli ömürləri ilə adlarını tariximizin qəhrəmanlıq səhifələrinə əbədi həkk ediblər.

***Anar ƏHMƏDOV,***
***DİN Daxili Qoşunlarının***
***“Əsgər” qəzetinin redaktoru, mayor***

## Biz birlikdə güclüyük!

# “Alfa”, “beta”, “qamma” və “delta”...

## Dünyanı çənginə alan qorxulu koronavirus ştamlarından yalnız peyvənd sayəsində qurtulmaq mümkündür

*Əvvəli 1-ci səh.*

Epidemioloji vəziyyətin gərgin olaraq qalması dünyanın normala dönməsinin hələ də mümkün olmadığını göstərir. Buna görədir ki, bir müddət əvvəl müəyyən yumşaldılmalara gedən ölkələr, yoluxmanın sayının artması ilə əlaqədar bu qərarları ləğv edib və yenidən mübarizə tədbirlərini gücləndirməyə başlayıblar.

### “Delta” fərqli simptomlarla özünü büruzə verir

Mütəxəssislər virusların davamlı olaraq mutasiya etməsini təbii hal kimi dəyərləndirirlər və məlumat verirlər ki, yaranan variantların əksəriyyəti ziyansız sayılsa da, bəziləri daha yoluxucu, daha ölümcül ola bilirlər.

Araşdırmalara əsasən, koronavirusun yeni ştamı Hindistan variantı olaraq bilinən “delta” variantının, “alfa” variantından daha sürətli yayıldığı məlum olub.

İngiltərədə aparılan bir araşdırma isə “delta” variantının əvvəllər COVID-19 yoluxmalarında rast gəlinəndən fərqli simptomlar göstərə biləcəyini ortaya qoyub.

İngiltərədə “Zoe Covid Simptomları” adlı araşdırma aparan professor Tim Spector “delta” variantına sahib olanlar arasında daha çox baş, boğaz ağrısı və burun axması kimi simptomlara daha çox rast gəlindiyini bildirib. O qeyd edib ki, bu ştama yoluxan gənc xəstələr özlərində şiddətli soyuqdəymə hiss edirlər.

Əvvəllər COVID-19 simptomları İngiltərə Səhiyyə Xidməti tərəfindən öskürək, qızdırma, qoxu və dad itkisi kimi sayılırdısa, araşdırmalar zamanı anket formalarını dolduran minlərlə COVID-19 xəstəsinin hesabatlarına görə, bu simptomların indi daha az yayıldığı ortaya çıxıb: “İnsanlar bir növ mövsümi soyuqdəymə keçirdiklərini düşünürlər və başqaları ilə əlaqə saxlayırlar. Bu yolla virusu daha altı nəfərə ötürə bilirlər. Düşünürük ki, yoluxmaların artmasında bu hal mühüm rol oynayır”, - deyə professor Spektor bildirib.



### Koronavirusa qarşı kütləvi immunitet qazanılmalıdır

Əksər elm adamlarının birgə qənaəti isə COVID-19-dan və onun getdikcə ortaya çıxan müxtəlif qorxulu ştamlarından qurtuluş yolunun yalnız peyvəndləmə ilə mümkün olması ilə bağlıdır. Koronavirusun daha geniş yayılmasının qarşısının alınması, eləcə də təsirinin azaldılması istiqamətində aparılan mübarizədə vaksinasiyanın mühüm rolu var. Peyvənd sayəsində dünya əhalisi koronavirusa qarşı kütləvi immunitet qazandıqdan sonra COVID-19 bəlasından qurtula bilər.

Azərbaycan da vaksinləri əldə edən və əhalinin kütləvi vaksinasiyasına başlayan ilk ölkələr sırasındadır. Ölkəmizdə yanvar ayının 18-dən tibb işçilərinin peyvəndlənməsi ilə start verilən bu proses uğurla davam etdirilir. Artıq 5 milyona yaxın doza peyvənd vurulub və bu peyvəndlər tam təhlükəsizdir.

Respublikamızda COVID-19 xəstəliyinə qarşı 4 istehsalçının vaksini tətbiq olunur: SINOVAC (Çin), AstraZeneca/Vaxzevria (İngiltərə), Biontech/Pfizer (Almaniya/ABŞ), Sputnik V (Rusiya).

Son zamanlar isə bəzi ölkələrin tibbi tövsiyələrində iki dozadan sonra yeni peyvəndin, eləcə də sağalmış xəstələrin vaksinasiyasının zəruriliyi qeyd olunur.

Azərbaycan Səhiyyə Nazirliyinin məlumatına əsasən, 2-ci dozadan 6 ay keçdikdən sonra yüksək risk qrupuna daxil olanlara (tibb işçiləri, yaşı 60-dan yuxarı olan şəxslər, autoimmun xəstəlikləri olan şəxslər) 3-cü buster-doza (qüvvətləndirici əlavə peyvəndləmə) vaksin vurulması məqsədəuyğun hesab edilir.

### 3-cü doza şərtdirmi?

Türkiyəli professor-doktor Osman Müftüoğlu 3-cü doza ilə bağlı məlumat verərək bildirir ki, bir neçə istisna xaricində vaksinlər üçün də müəyyən bir “güvənmə” müddəti var. Bu müddət hər vaksin üçün fərqlidir. Aralığı təyin edən, peyvənd tərəfindən təmin edilən hüceyrə və sekretor qoruma, yəni antikor səviyyəsi və T hüceyrə toxunulmazlığıdır. Əksər peyvəndlər üçün zamanla azalmış toxunulmazlıq səviyyəsini artırmaq və əvvəlki səviyyəsinə qaytarmaq üçün “gücləndirici doza”, “xatırlatma dozası”, yəni bir növ “artırıcı doza” tələb oluna bilər. Bu doza sayəsində artan antikor gücü və gücləndirilmiş hüceyrə immun reaksiyası insanları daha çox qoruyur.

“3-cü doza şərtdirmi” sualına aydınlıq gətirən professor söyləyir ki, mütəxəssislərin də ortaq qənaəti budur ki, qrip peyvəndi hər mövsüm təkrar edildiyi kimi, ehtimal ki, ildə bir dəfə koronavirus üçün peyvənd edilməli və ya 2 dozadan sonra 3-cü doza peyvənd vurulmalıdır: “İstər ölü virus peyvəndi, istərsə də vektor peyvəndi və ya mRNA (BioNTech) peyvəndi olsun, nəticənin əhəmiyyəti yoxdur, digər peyvəndlərdə olduğu kimi, zaman keçdikcə COVID-19 peyvəndi ilə təmin edilən toxunulmazlıq da azalır. Buna görə də 3-cü doza vaksin vurdurmağın faydası var.

ABŞ-ın səhiyyə mütəxəssisi doktor Entoni Fauci də koronavirusla bağlı son açıqlamalarının birində peyvəndin üçüncü dozasının lazım olacağını söyləyib.

Göründüyü kimi, koronavirus dünyanın bir nömrəli problemidir və hər ötən gün yoluxma arealını artıraraq insanların həyatını təhlükəyə atmaqda davam edir. Amma hazırda bəşəriyyət koronavirusun yayıldığı ilk zamanlarda olduğu kimi çarəsiz deyil. COVID-19-a qarşı təsirli silah - peyvəndlər tapılıb. Sadəcə olaraq, hər kəs vaksinasiya prosesində aktiv iştirak edərək, tezliklə “taclı bəla”nın tərksilah olmasına çalışmalıdır.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# COVID-19 testinin nəticələrinə dair sənədləri saxtalaşdıran vəzifəli şəxslərin qanunsuz əməlləri ifşa olunub

Əhalinin sağlamlığının qorunması, COVID-19 pandemiyasının yayılmasının və onun mümkün fəsadlarının qarşısının alınması, pandemiyanın insanların gündəlik həyat və rifahı üzərində mənfi təsirinin azaldılması məqsədilə ölkə miqyasında həyata keçirilən çoxşaxəli tədbirlərə baxmayaraq, yaranmış həssas vəziyyətdən şəxsi maraqları naminə istifadə etməklə vətəndaşların hüquqlarını pozan vəzifəli şəxslərin ifşa edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində prokurorluq orqanları tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi “Əsr” və “Arkan Tour” MMC-lərin vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Aparılmış ibtidai istintaqla “Əsr” MMC-nin direktoru Əsgər Bayramovun “Arkan Tour” MMC-nin direktoru Tünzalə Əliyeva və istintaqla şəxsiyyətləri araşdırılan qeyriləri ilə qabaqcadan əlbir olaraq tanışı Seymur Mürsəlovun xahişi ilə 101 nəfərin Gəncə Beynəlxalq Hava Limanından Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə səyahətini təşkil etmək məqsədilə həmin şəxslərin tibbi müayinədən keçmədən tibb müəssisələrindən verilməsi görüntüsünü yaradan COVID-19 testinin nəticələrinə dair saxta sənədləri hazırlayıb ümumilikdə 12 min 120 manata satmasına, eləcə də həmin hərəkətləri ilə dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan mühüm zərər vurmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə əsaslı şübhələr yaranıb.

Qeyd edilənlərə əsasən, Əsgər Bayramova və Tünzalə Əliyevaya Cinayət Məcəlləsinin 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə ağır nəticələrə səbəb olduqda), 320.1 (rəsmi sənədləri qanunsuz hazırlama və satma) və 320.2-ci (bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə ittiham elan edilib. Əsgər Bayramovun barəsində məhkəmənin qərarı ilə həbs, Tünzalə Əliyeva barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların, cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu vətəndaşlara müraciət edərək koronavirus əleyhinə peyvənd vurulması, habelə COVID-19 testinin nəticələri ilə bağlı vətəndaşlara saxta sənəd verilməsi halları ilə üzləşdikdə 961 nömrəli Çağrı Mərkəzi, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 nömrəli Qaynar xətt əlaqə mərkəzi, o cümlədən Baş Prokurorluğun sosial şəbəkələrdəki səhifələri vasitəsilə məlumat verilməsini xahiş edir.

# Koronavirusla mübarizə tədbirləri çərçivəsində Xəzər rayonunda növbəti reydlər keçirilib







Koronavirus pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində Xəzər rayonunda keçirilən reydlər son günlərdə daha da gücləndirilib.

İyulun 29-da Bakı Şəhər İcra Hakimiyyəti, Xəzər Rayon İcra Hakimiyyəti və Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən rayon ərazisindəki ərzaq mağazalarında, apteklərdə, həmçinin fəaliyyətinə icazə verilən digər obyektlərdə, müxtəlif ticarət və xidmət sahələrində reydlər keçirilib.

Xəzər Rayon İcra Hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, reydlər zamanı bütün obyektlərin işçi heyətinə, eyni zamanda, sakinlərə tibbi maskalardan istifadə edilməsinin zəruriliyi, sosial məsafənin gözlənilməsi, sanitar-gigiyenik qaydalara düzgün riayət olunması bildirilib. Həmçinin, obyektlərdə əməkdaşların 80 faizinin peyvəndlənmiş olması tələbinin yerinə yetirilməsi vəziyyəti yoxlanılıb.

Fəaliyyətlərində nöqsan aşkar edilən bir neçə ticarət obyektlərinə ciddi xəbərdarlıqlar edilib.









# XXXII Tokio Yay Olimpiya Oyunları

AZERBAIJAN

# İlk medal bürünc oldu

## Cüdoçunuz İrina Kindzerska “Tokio-2020”ni mükafatla başa vurdu

*Əvvəli 1-ci səh.*

Cüdo yarışlarında sonuncu gün ağırçəkili idmançılarımız Uşanqi Kokauri və İrina Kindzerska mübarizəyə qoşulmuşlar. Qadınların +78 kq çəki dərəcəsində yarışında təmsilçimiz İrina Kindzerska ilk görüşünə 1/8 finalda çıxdı. 30 yaşlı cüdoçumuz Bosniya və Herseqovinadan olan rəqibi Larisa Çeriçə heç bir şans vermədi. Kindzerska əvvəlcə onu, 1/4 finalda isə cənubi koreyalı Miyin Hanı ippona salaraq yarımfinala adladı. İdmançımız final yolunda Yaponiyanın 21 yaşlı dünya çempionu Akira Sone ilə qarşılaşdı. Amma bu dəfə özü ipponla uduzan Kindzerska qızıl medal şansını əldən verdi.

Bürünc medal uğrunda mübarizəni davam etdirən təmsilçimiz 3-cü yer uğrunda görüşdə çinli Şiyan Xu ilə qarşılaşdı. Rəqibinə ipponla qalib gələn İrina Olimpiadanın bürünc medalına sahib oldu.

İrina Kindzerska qarşılaşmadan sonra deyib ki, çox xoşbəxtdir, hisslərini sözlə ifadə edə bilmir: “Bu gün maksimum hazırlıqlı idim və görüşlərimə maksimum köklənmişdim. Azərbaycanda qadın cüdosu mövcuddur, sadəcə, yalnız işləmək lazımdır. Qazandığım medal digər qadın cüdoçulara da gələcək karyeralarında təkan ola bilər. Öz məşqçilərimə, Azərbaycan Cüdo Federasiyasına təşəkkürümü bildirirəm. Vitse-prezident Sadıq Sadıqova inanılmaz inam və dəstəyinə görə minnətdaram. Yaşlı idmançı olmağıma rəğmən, mənə inandılar. Ən böyük “çox sağ ol”u isə təbii ki, həyat yoldaşıma, ailəmə, valideynlərimə deyirəm. Onlar nəticəmdən asılı olmayaraq, mənimlə fəxr edirlər”.





Xatırladaq ki, 30 yaşlı qadın cüdoçumuz 2017-ci ildə Bakıda təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarında gümüş medala sahib olub. Həmin il Budapeştdə keçirilən dünya çempionatını üçüncü pillədə başa vuran İ.Kindzerska 2019-cu ildə Minskin evsahibliyi etdiyi II Avropa Oyunlarında da üçüncü yeri tutub. Bir il sonra isə o, Praqada keçirilən qitə birinciliyində gümüş medala sahib olub.

+100 kq çəki dərəcəsində kişilərin mübarizəsində 1/16 finaldan yarışa start götürən Uşanqi Kokauri polşalı Matsey Sarnaçkiyə ipponla qalib gəldi. Ancaq o, uğurlu çıxışını davam etdirə bilmədi. Kokauri növbəti raundda Braziliya təmsilçisi Rafael Silvaya eyni qaydada uduzaraq mübarizəni dayandırdı.

Qeyd edək ki, Tokio-2020-də 9 cüdoçu ilə təmsil olunan Azərbaycan yığmasının heyətində bundan əvvəl Kəramət Hüseynov (60 kq), Aişə Qurbanlı (48 kq), Orxan Səfərov (66 kq), Rüstəm Orucov (73 kq), Murad Fətiyev (81 kq), Məmmədəli Mehdiyev (90 kq), Zelim Kotsoyev (100 kq) və Kokauri (+100 kq) yarışı medalsız başa vurmuşlar.

*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*

## “Nəticələr nə məni, nə də digər idmançıları qane edir”



“Nəticə heç birimizi qane etmir. 7 kişi idmançısı ilə yarışa gəlmişdik. 5 ildir bu yolu gedir və hazırlaşırdıq. Nə məni, nə də digər idmançıları nəticələr qane edir. Bunun bir neçə səbəbi ola bilər. Cavan və təcrübəsiz cüdoçularımız var. Bəlkə ona görə uduzublar”.

Bu fikirəri Azərbaycan cüdoçusu Məmmədəli Mehdiyev “Tokio-2020”də çıxışları barədə danışarkən deyib. O, həmçinin 90 kq çəki dərəcəsində mübarizə aparan idmançı Rüstəm Orucovla (73 kq) birlikdə püşkatmada bəxtlərinin gətirmədiyini bildirib: “Həm mənim, həm də onun çəkisində 2-3 idmançı var ki, onlara qarşı çətinlik çəkirik. Elə oldu ki, onlar bizim qrupumuza düşdülər. Hazırlığımız yaxşı keçmişdi və biz “Tokio-2020”yə yüksək ruhla gəlmişdik. Bəxtsizlik oldu. Konkret səbəb deyə bilmirəm”.

M.Mehdiyev psixoloji cəhətdən hazırlıqlı olduqlarını da söyləyib: “Hamımız məsuliyəti bilirdik. Neçə ildir ki, bu yola hazırlaşırdıq. 5 il bu yolda əziyyət çəkmişik. Hər idmançının niyyəti Olimpiadadan medalla qayıtmaq və bayrağımızı dalğalandırmaq idi. Hazırlığımız yaxşı keçib. 3-4 idmançı var ki, onlarla güləşəndə çətinlik çəkirəm. Onun da biri rusiyalı cüdoçu idi və ikinci görüşdə mənə rəqib oldu. Məşqlərdə hazırlaşmışdım. Amma məşqlə yarış tamam ayrıdır. Özümü də yaxşı hiss edirdim və formada idim. Tatamiyə çıxdım, lakin alınmadı”.

Cüdoçu pandemiyanın da nəticələrə təsir etdiyini sözlərinə əlavə edib: “Neçə ay zallar bağlı oldu. Bu bizə çox pis təsir etdi. Zal tapa və məşq edə bilmirdik. Yarışdan əvvəl yığma üzvləri və mən koronavirusa yoluxmuşduq. O səbəbdən Avropa çempionatını buraxmışam. İki ay müalicə almışam. Dünya çempionatında iştirak etmək istəsəm də, sonda qatılmadım”.

## Boksçumuz yarımfinalda



**Azərbaycan boksçusu Alfonso Dominqes “Tokio-2020”də növbəti döyüşünü keçirib. O, 1/4 finalda türkiyəli Bayram Malkanla qarşılaşıb.**

İlk görüşdə özbəkistanlı Dilşotbek Ruzmetovu mübarizədən kənarlaşdıran Avropa Oyunlarının qalibi ikinci döyüşündən də qalib ayrılıb. 81 kq çəki dərəcəsində qüvvəsini sınayan Dominqes rəqibini 5:0 (28:27, 29:26, 28:27, 29:26, 28:27) hesabı ilə məğlub edib.

Bununla da Alfonso yarımfinalda iştirakını rəsmiləşdirib. Boksçumuz 1/4 final səddini keçməklə özü üçün ən azı bürünc medalı təmin edib. O, finala gedən yolda avqustun 1-də kubalı Arlen Lopeslə qarşılaşacaq.



## Olimpiadada virusa yoluxanların sayı artmaqdadır

Son sutka ərzində Tokio Olimpiadası ilə əlaqəli şəxslər arasında koronavirusa yoluxanların sayı daha 27 nəfər artıb. Olimpiya Oyunlarının Təşkilat Komitəsindən verilən məlumata görə, virusa yoluxanlardan üçü idmançıdır. Beləliklə, oyunlarla əlaqəli şəxslər arasında koronavirusa yoluxanların ümumi sayı 225 nəfəri ötüb.

Xatırladaq ki, Yaponiya hökuməti Tokioda epidemioloji vəziyyətin ağır olması ilə əlaqədar iyulun 12-dən fövqəladə vəziyyət rejimi elan edib. Bu gün ekspertlər komissiyası fövqəladə vəziyyət rejiminin Tokioda avqustun 30-dək uzadılması və bu rejimin daha dörd prefekturada yenidən tətbiqi barədə qərar qəbul edib. Məhz fövqəladə vəziyyət rejimi davam etdiyinə görə tamaşaçılar “Tokio-2020”yə buraxılmırlar.




# Əhalinin məşğulluğunun təminatı üçün ehtiyat mənbələrindən də istifadə olunur

*Əvvəli 1-ci səh.*

Dövlət Statistika Komitəsinin məlumatına görə, iyunun 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1677,6 min nəfər olmuşdur. O cümlədən, iqtisadiyyatın dövlət sektorunda 911,6 min, qeyri-dövlət sektorunda 766 min nəfər çalışmışdır. İqtisadiyyatın neft-qaz sektorunda 32,1 min, qeyri neft-qaz sektorunda isə 1645,5 min nəfər cəmləşmişdir.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin sahələr üzrə sayını göstərən rəqəmlər də maraq doğurur. Belə ki, onların 23,5 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,4 faizi tikintidə, 7,3 faizi emal sənayesində, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 1,9 faizi mədənçıxarma sənayesində, 1,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğuldur.

Xidmət sahəsində işləyənlərin isə 19,7 faizi təhsil, 18,6 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,7 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 5,3 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi istirahət, əyləncə və incəsənət, 1,7 faizi informasiya və rabitə, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 0,9 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində çalışırlar.

Koronavirusun sosial-iqtisadi sahəyə vurduğu ziyanın minimum olması üçün Azərbaycan dövləti hələ pandemiyanın əvvəlindən genişmiqyaslı qabaqlayıcı tədbirlər görmüşdür. İqtisadi inkişafın təmin olunması üçün bir sıra əsaslı proqramlar işlənib hazırlanmışdır və onlar həyata keçirilməkdə davam edir. Əhalinin məşğulluq məsələsi bu dövrdə də prioritetlərdən biri kimi qalmışdır.



Prezident İlham Əliyev hələ keçən ilin əvvəlində demişdir: “Dövlət xətti ilə həyata keçirilən investisiya layihələri, eyni zamanda, məşğulluğu təmin edir və əhalisi artan Azərbaycan üçün məşğulluq məsələsi, əlbəttə ki, ön plandadır”.

İctimai iş yerlərinin açılması və özünüməşğulluğun inkişaf etdirilməsi insanların işlə təmin olunması istiqamətində atılan uğurlu addımlardandır. Qeyd edək ki, pandemiya ilə bağlı vəziyyət ictimai iş yerlərinin sayının daha da artırılmasını gündəmə gətirmişdir və bununla əlaqədar keçən il minlərlə ödənişli ictimai iş yeri yaradılmışdır.

Özünüməşğulluq vətəndaşlar üçün əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur, bunun sayəsində də insanlar müəyyən iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə.

Dolanışıq səviyyəsi aşağı olan vətəndaşlara dövlət həmişə qayğıkeşlik və diqqət göstərir. Bununla yanaşı, həm də ehtiyaclarını ödəmək üçün hər bir ailənin özünün imkanlarının yaranması məsələsi önə çəkilir. Özünüməşğulluq da məhz maddi çətinliyi olan ailələrin özlərinə yaxşı dolanışıq şəraiti yaratmağa imkan verir. Dövlət orqanları, yerli icra orqanları və özəl qurumların bu istiqamətdə layihələr həyata keçirmələri qarşıya məqsəd kimi qoyulub. Təqdirəlayiq haldır ki, bu sahədə də tədbirlər davamlı xarakter daşıyır.

Bu il iyulun 14-də Prezident İlham Əliyev Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində demişdir: “Bildiyiniz kimi, son illər ərzində ölkəmizdə genişmiqyaslı özünüməşğulluq proqramı icra edilir. Biz hər il özünüməşğulluqla məşğul olmaq istəyənlər üçün vasitələr təqdim edirik və onların sayı artır. Bu il nəzərdə tutulub ki, 16 min insan özünüməşğulluq proqramına cəlb olunacaq, dövlət tərəfindən onlara vasitələr veriləcək və beləliklə, onlar öz gələcək maddi imkanlarını özləri təmin edəcəklər. Özünüməşğulluq proqramına cəlb olunan 16 min nəfər arasında artıq 5 mindən çox şəhid ailələrinin üzvləri və müharibə əlilləri vardır. Yəni bu da daim diqqət mərkəzində olan məsələdir”.

Məqsəd əhalinin bu proqramdan ciddi şəkildə bəhrələnməsidir. Çünki özünüməşğulluq perspektivli proqramdır. Bu proqram insanların özlərinin dolanışığını yaxşılaşdırmağa, bəzi vətəndaşları ələbaxımlıq vərdişindən çəkindirməyə kömək etməklə yanaşı, iqtisadi inkişafa təkan verəcək.

*Flora SADIQLI,*
*“Azərbaycan”*

# Beynəlxalq aləm

## Türkiyədə meşə yanğınları davam edir

Son günlər Türkiyənin 21 vilayətində baş verən 63 meşə yanğını nəticəsində azı 4 nəfər həlak olub. Bəzi ərazilərdə yanğınlar hələ də davam edir.

Dünən günortaya olan məlumata görə, yanğının ən çox sıx olduğu Antalyanın Manavqat şəhərində 3, Marmaris şəhərində 1 nəfər həlak olub. Antalyada yanğının təsir etdiyi 183 nəfərsə xəstəxanaya müraciət edib.



Yanğın əsasən Manavqat, Marmaris və Bodrumdakı yaşayış məntəqələri üçün təhlükəlidir və bu səbəbdən həmin bölgələrdəki bəzi kəndlər və turizm obyektləri boşaldılıb. Yanğınları söndürmək üçün tanker və yanğınsöndürənlərdən başqa, pilotsuz aparatlardan da istifadə olunur.

Rəsmi açıqlamalara görə, meşə yanğınlarının 43-ü nəzarət altındadır, 20 yerdə yanğın davam edir.

Meşələrdəki yanğın bəzi bölgələrdə küləyin təsiri ilə yaşayış yerlərinə keçib. Artıq meşə yanğınları ilə bağlı şübhəli 5 şəxs saxlanılıb.

## Suriyanın cənubunda 15 dinc sakin qətlə yetirilib



Suriyanın cənubunda Deraa əyalətində Bəşşar Əsəd rejiminin qoşunlarının hücumları nəticəsində 15 dinc sakin, o cümlədən uşaqlar həlak olmuşdur. Bu barədə “Anadolu” agentliyi xəbər verir.

Məlumata görə, Əsədə sadiq qüvvələr Deraa-əl-Balad məhəlləsində öz hökmranlığını gücləndirmək məqsədilə əyalətin eyniadlı inzibati mərkəzində yerüstü əməliyyata başlamışdır. Hücum zamanı rejim qüvvələri tanklardan və artilleriya mərmilərindən istifadə etmişlər. Toqquşmalar yaxınlıqdakı yaşayış məntəqələrində davam etmişdir.

Son məlumata görə, region əhalisinin və silahlı müxalifət dəstələrinin müqaviməti ilə rastlaşan Əsəd qoşunları qızğın döyüşlərdən sonra geri çəkilmək məcburiyyətində qalmışdır. Müxalifət döyüşçüləri rejimin 12 blokpostunu ələ keçirə bilmişdir. Buna cavab olaraq Əsəd qüvvələri yaşayış məntəqələrini minaatanlardan və artilleriyadan atəşə tutmuşlar.

## İsrail dünyada ilk olaraq peyvəndin üçüncü dozasına başlayır



İsrail yaxın vaxtlarda öz sakinlərinə BioNTech/Pfizer preparatının üçüncü dozasını vurmağa hazırlaşır. Bu barədə ölkənin Baş naziri Naftali Bennet məlumat vermişdir.

Koronavirusa qarşı peyvəndin üçüncü dozası 60 yaşı tamam olmuş İsrail vətəndaşları üçün nəzərdə tutulur. Artıq test çərçivəsində 2 min nəfər üçüncü doza vaksin almışdır. Onlarda təhlükəli kənar təsirlər aşkar edilməmişdir.

Bennetin dediyinə görə, 60 yaşı tamam olmuş İsrail Prezidenti İshak Hersoq da dünən preparatın üçüncü dozasını almışdır. “Mən artıq iki doza almış ahıl adamları üçüncünü də vurdurmağa çağırıram. Bu, onları ağır xəstəlikdən və ölümdən xilas edəcək”, - deyə Baş nazir bildirmişdir.

Üçüncü peyvənd ikinci dozanı azı 5 ay öncə almış sakinlərə vurulacaq.

İsrail dünyada ilk ölkələr sırasında əhalisinin əksər hissəsini peyvəndlə təmin etsə də, son ay ərzində yoluxma sayının artması müşahidə olunur. Ekspertlər bunu virusun “Delta” variantının yayılması ilə əlaqələndirirlər.

## Kubada 10 gün ərzində 6 nüfuzlu sərkərdə dünyasını dəyişib

Son 10 gün ərzində 6 nüfuzlu kubalı sərkərdə vəfat etmişdir. Bu barədə “Tele-Radio Marti” stansiyasına istinadən “İnterfaks” agentliyi xəbər verir.



Belə ki, dünən KİV “inqilab döyüşçüsü” Xilberto Antonio Kardero Sançesin ölüm xəbərini yaymışdır. Bundan əlavə, ölkənin şərqində Kuba ordusuna komandanlıq etmiş diviziya generalı Auqustin Penya Porres, ehtiyatda olan general Marselo Verdesia Perdomo, diviziya generalı Ruben Martines Puente, general Manuel Eduardo Paçeko və briqada generalı Armando Rodriges dünyalarını dəyişmişlər. Onların ölümlərinin səbəbləri barədə məlumat verilmir.

Xatırladaq ki, iyulun 11-də minlərlə kubalı iqtisadi, ərzaq və sosial böhranlara qarşı bütün ölkə üzrə etiraz aksiyalarına çıxmışdır.

## Əfqanıstan Prezidenti fikir ayrılıqlarının tənzimlənməsinin hərbi yolunu istisna edir

Əfqanıstan Prezidenti Əşrəf Qani ölkədə münaqişənin tənzimlənməsinin hərbi yolunu istisna etmişdir. Kabildə Bayraq günü ilə bağlı tədbirdə çıxış edən dövlət başçısı qeyd etmişdir ki, “Taliban” hərəkatı düz yol seçməli və siyasi konsensusa nail olmaq üçün döyüş əməliyyatlarını dayandırmalıdır.

Qaninin dediyinə görə, Əfqanıstan hökuməti qətiyyətini zəiflətməyəcək. “Əgər taliblər əhalini nəyəsə tabe edəcəklərini güman edirlərsə, onlar bir daha düşünməlidirlər”.



Qani diqqəti Əfqanıstanı müharibə poliqonuna çevirmək istəyən xarici qüvvələrin cəhdlərinə yönəltmişdir. Prezident vurğulamışdır ki, Əfqanıstan ölkənin məhvinə tuşlanmış planların həyata keçirilməsinə imkan verməyəcək. Qani əmin etmişdir ki, Əfqanıstan xalqı və dövləti sülh istəyir və buna nail olmaq üçün tam qətiyyətlidir. “Münaqişənin həllinin hərbi yolu alternativ deyil, Əfqanıstanda sabitliyin pozulması regionda sabitliyin pozulmasıdır”, - deyə Prezident vurğulamışdır.




# Naqilsiz ünsiyyət

**İlk mobil telefonu 1983-cü ildə amerikalı mühəndis Martin Kuper icad edib. "Motorolla" şirkəti bu layihəsinə 100 milyon dollar xərcləyib. Bu hadisə telekommunikasiya sahəsində yeni dövrün başlanğıcı oldu.**



İlk naqilsiz telefonun çəkisi 794 qram, uzunluğu isə 33 sm idi. Enerji ehtiyatı tutumu 8 saat olan cihazın satış qiyməti 3995 dollar təyin edilmişdi. Lakin o, alıcıların istifadəsinə təxminən 10 il sonra verilmişdi. Çünki lisenziyanın alınması və şəbəkənin yaradılması vaxt tələb etmişdi. Martin Kuper müsahibələrində qeyd etmişdi ki, o zaman ixtiraçılar qrupunun sərəncamında bir əsas stansiya və bir mobil telefon var idi. Buna görə də eşidilmədə problem yaranmamışdı. Lakin sonrakı dövrlərdə operatorlar danışıqların böyük qismini bir tezlik kanalına daxil etmişdilər. Təbii ki, bu da keyfiyyətə təsirsiz ötüşməmişdi. Tədricən bütün texniki nasazlıqlar həll edilmişdi.

İlk vaxtlar mobil telefonlarda yalnız zəng etmək funksiyası olsa da, bir sıra təkmilləşdirmələrdən sonra ona saat, təqvim və qrafik ekran əlavə olunmuşdu.

# Gələcəyə damğa vuracaq yeniliklər

**Araşdırmalar göstərir ki, 2021-ci ildə mobil telefon istifadəçilərinin sayı 3,5 milyardı keçib. "Ağıllı" telefonlar alış-verişdən əyləncəyə qədər bir çox ehtiyacımızı qarşılayır.**



Önümüzdəki illərdə 5G texnologiyasının kütləvi istifadəsi planlaşdırılır. Bu texnologiyanın həyatımıza tətbiqi ilə mobil telefonlardakı internet daha da sürətlənəcək, video izləmək, oyun oynamaq və buna bənzər digər funksiyalar fasiləsiz fəaliyyət göstərəcək.

5G texnologiyasının inkişafı "Ağıllı şəhər", "Ağıllı ev" layihələrinə də müsbət təsir edəcək. Daha geniş tezlik diapazonunda yüksək internet sürətini təmin edən mobil məlumat infrastrukturu 5G bütün dünyaya yayılaraq bazarda böyük bir dönüş yaradacaq.

Hələ də mobil cihazlarda "Litium-ion" batareyaları istifadə olunur. Mobil telefonların daim artan enerji ehtiyacları çərçivəsində bu sahədə işlər səngimədən davam edir. Telefonu 5 günə qədər işlədən və təbiətə daha az zərər verən yeni nəsil akkumulyator texnologiyaları üzərində iş davam edir. Gələcəkdə Wi-Fi və ya bənzər bir radio tezliyi metodu ilə naqilsiz enerji doldurma cihazlarının istifadəçilərə təqdim edilməsi nəzərdə tutulur.

Hər yeni model telefonda öncəkilərdən daha keyfiyyətli və aydın görüntülər əldə etmək üçün linza və kameralar istehsal edilir. Önümüzdəki illərdə mobil telefonların ön və arxa kameralarının təkmilləşdirilməsi ilə nəinki yüksəkkeyfiyyətli şəkillər, hətta filmlər çəkmək mümkün olacaq.

Son vaxtlar "virtual reallıq" anlayışını getdikcə daha çox eşidirik. Virtual reallıq texnologiyasının məsafəli təhsil və iş sisteminin genişləndirilməsi çərçivəsində mobil telefonlara inteqrasiya edilərək təhsil və kadr hazırlığı kimi sahələrdə istifadə ediləcəyi düşünülür. Yaxın gələcəkdə inkişaf etdiriləcək yeni çiplər, 5G texnologiyası, yeni nəsil batareyalar və virtual reallıq texnologiyalarının həyatımızda daha çox yer tutacağı gözlənilir.

## Bilmədiklərimiz

- Son illər insanların, xüsusən də gənclərin əksəriyyəti Nomofobiyadan əziyyət çəkir. Nomofobiya - telefonsuz, internetsiz qalmaq və onlara aludə olanların həmin vəziyyətdə keçirdiyi qorxu, həyəcan və stres, yaşadığı təşviş pozuntusudur.
- Bilirdinizmi ki, "Cib telefonu atma" Finlandiyada rəsmi idman növüdür.
- Tarixdə ən çox satılan telefon Nokia 1100-dür.
- Malayziyada ər və ya arvadın boşanmayla bağlı bircə mesajı evliliyin bitməsinə hüquqi əsas verir.
- Mobil telefonlarda digər əşyalarımızdan 18 qat daha çox bakteriya var.
- Yaponiyanın istehsal etdiyi mobil telefonların 90 faizi su keçirmir. Səbəb isə bu ölkədəki gənclərin hətta hovuzda belə telefon istifadə etmələridir.
- ABŞ-da yaşayan "ağıllı" telefon sahiblərinin 47 faizi onsuz yaşaya bilməyəcəklərini iddia edirlər.

# Təəccübləndirən modellər

**"Hyundai MP280" - üzərində ətir yuvası olan qapaqlı mobil telefondur. Onun əsas fərqləndirici xüsusiyyəti telefonun korpusunu açanda avtomatik olaraq ətir sıxılmasıdır. Dəfələrlə doldurula bilən ətirdən 8 saat istifadə etmək mümkündür.**

"Sirenne" telefonu "Samsung" və "Bang & Olufsen" şirkətlərinin birgə əməkdaşlığı ilə istehsal edilib. Original dizayna malik olan bu telefon zahirən stolüstü saata daha çox bənzəyir.

"Toshiba G450" telefonu dizaynı ilə digərlərindən kəskin şəkildə fərqlənir. Görünüş etibarilə telefon yaddaş kartını daha çox xatırladır. Bu şirkət çox az mobil telefon istehsal etmiş və sonradan bu bazardan geri çəkilmişdir.

Telefonların metal və plastikdən hazırlanmasına öyrəşmişik. Lakin məşhur dizayner Maykl Luis bambukdan hazırlanmış telefonla hamımızı təəccübləndirməyi bacardı. Bu telefon ekoloji cəhətdən təmiz, təbii və təhlükəsizdir. Təbiətə ziyanı minimumdur. Düzdür, burada istifadə olunan bambuk tamamilə adi deyil.






Qamma şüası ilə əhatələnir və eyni zamanda istifadəçini bakteriyalardan qoruyan bir nano hissəcik təbəqəsi ilə örtülür.

Mobil telefon dünyasının ən təəccübləndirən modellərindən biri "Nokia" şirkətinə məxsusdur. Telefonun batareyası şirin qazlı su ilə doldurulur, sonra bunu kimyəvi reaksiya ilə elektrik enerjisinə çevirən mexanizm işə başlayır. Yanacaq bu mexanizm sayəsində elektrik enerjisinə çevrilir, istifadə edildikcə rəngi də dəyişməyə başlayır. Qazlı suyun içərisindəki şəkər miqdarı tamamilə bitincə rəngi şəffaflaşır və adi mayeyə çevrilir.

Bir çox insan telefonu yalnız qulaqlıqla istifadə edir. Bunu nəzərə alan mühəndislər qulaqlıq və telefonun birlikdə olduğu maraqlı mobil cihaz hazırlayıblar. Telefonun görüntüsü xoş və kompakt, istifadəsi isə çox rahatdır. Bu model, əsasən, avtomobil istifadəçiləri üçün nəzərdə tutulub.

Son zamanlar gənclər arasında populyarlıq qazanan "stres çarxı" dizaynerlər üçün ilham mənbəyi olub. Onun istifadəsi olduqca sadədir. Qeyri-adiliyi isə mərkəzində yerləşən düymədədir. Bu düymə həm telefonu istifadə etmək, həm də onu "stres çarxı" kimi fırlatmaq funksiyasını daşıyır.

## Elastik ekranlı mobil telefonlar

**Elastik ekranlı mobil telefonlar yaxın gələcək üçün ən çox proqnozlaşdırılan cihazlardan biridir. Hazırda bir neçə şirkətin qatlana bilən telefonlar üzərində işlədiyini bilirik. Növbəti addımın elastik ekranlar olacağı düşünülür.**



Telefonunuzu cibinizdən çıxardığınızı və ekranı böyütmək üçün hər iki küncdən çəkdiyinizi düşünün. İstifadə etdikdən sonra eyni şəkildə daraldıb cibinizə qoyursunuz. Belə bir texnologiyanın reallaşması üçün yalnız ekran deyil, içərisindəki komponentlər də uzanıb qısala bilməlidir. Bu, indi qeyri-real görünsə də, Miçiqan Universitetinin tədqiqatçıları uzanacaq elektronikanın gələcəyini düşünürlər.

Hologramlar elmi fantastika kainatının illərdir diqqət mərkəzində olduğu bir mövzu olmuşdur. Kanada universitetlərinin tədqiqatçıları "Holofleks" prototipi üzərində işləyirlər. "Holofleks" həm holoqrafik, həm də elastikdir. O, istifadəçilərə ekranın əyilməsinə imkan verən bir texnologiyadır. Hələ inkişafda olan və dünyanın ilk holoqrafik, çevik smartfonu kimi kanadalı alimlər tərəfindən təqdim edilən "Holofleks" gələcəyin holoqrafik telefonlarının başlanğıcıdır.

"Holofleks"in ikinci bənzərsiz tərəfi 3D formatlı şəkil və videoları eynəksiz göstərməklə birlikdə eyni anda birdən çox istifadəçiyə proyeksiya edə bilən holoqrafik HD ekranına sahib olmasıdır.

## Süni intellektə sahib ultra "ağıllı" mobil telefonlar

**Süni zəka konsepsiyası elmi fantastikanın əsas elementlərindən birinə çevrilib. Özünü inkişaf etdirən sistemlər və proqram təminatı ilə bu konsepsiya indi cibimizə də sığır. Artıq ultra "ağıllı" telefonların dövrü başlayır desək, yanılmarıq.**

"Huawei" şirkəti dünyada ilk dəfə "Kirin 970" adlı süni intellektə sahib prosessor istehsal edib. Sahib olduğu NPU (Sinir şəbəkəsi Generasiya Vahidi) ilə süni intellekt prosesləri daha sürətli və enerji qənaətli olacaqdır. NPU bölməsi indiyə qədər istifadə olunan mobil prosessorlarla müqayisədə 25 qat daha sürətli işləmə gücü təklif edən bir texnologiyadır və bu üstünlüyə baxmayaraq enerji istehlakında 50 dəfəyə qədər qənaət edir.

Süni zəkanın əsas vuruşacağı nöqtə smartfonlardakı virtual köməkçiləri ilə quracağı ünsiyyətdir. "Siri", "Bixby", "Google Assistant" kimi köməkçilərdən əlavə "Google TensorFlow", "Facebook Caffe2" və "Android NN" kimi süni zəka platformaları ilə uyğunluq bu prosessoru əlverişli vəziyyətə gətirəcəkdir.



NPU-nun bir telefonda nə edə biləcəyini düşünənlər üçün gündəlik etdiyinizi öyrənən və izləyən bir telefon nümunəsi olduğunu deyə bilərik. Bu telefon NPU bölməsi və lazımi proqram dəstəyi sayəsində bütün vərdişlərinizi öyrənə biləcək. Yatma və yuxudan oyanma, işə getmə və dönmə saatlarını bilərək buna uyğun proqram hazırlaya biləcək bir zəka olacaq.

"Qualcomm", NPU bölməsini insan beyninə bənzər olaraq təyin edir. Ənənəvi prosessorlar bunun üçün bir əməli hərəkət gözləyirlər, ancaq NPU vahidləri bir insan beyni kimi işləyir. Həm də bir əməliyyat etməzdən əvvəl başqa bir əməliyyatın həyata keçirilməsinin zəruriliyini aradan qaldırır.

## Beynin gücü

**Aparılan araşdırmalar qarşıdakı illərdə monitor və mikrofona ehtiyacımızın olmayacağını göstərir. Telefonların geyim və əşyalara belə inteqrasiya ediləcəyi proqnozlaşdırılır.**



İndi bu cihazları beyninizlə əlaqəli bir interfeysə bağladıqdan sonra tətbiqləri və mesajları yalnız düşüncə ilə oxuduğunuzu və yönləndirdiyinizi xəyal edin. "Qara Güzgü" seriyasından bir fikir kimi görünsə də, son 30 ildə smartfonların dəyişməsini düşünsək, gələcəkdə bu tamamilə mümkündür.

Bircə eynəklə telefon, planşet, noutbuk və digər bu kimi elektronik əşyalara sahib çıxmaq mümkün olacaq. Əlinizə baxmağınızla eyni anda böyük ekranlı bir telefon görəcəksiniz. Ad seçmək üçün ekrana toxunmağa ehtiyac olmayacaq. Göz hərəkətlərini izləyən ağıllı sistem vasitəsilə hər şeyi baxaraq həll edəcəksiniz. Bu son olacaqmı? Əlbəttə ki, yox!

Bir sonrakı addımda bütün texnologiyaların bir linza səviyyəsinə endiyini görəcəksiniz. Ağıllı linzalarla ürəyimiz istəyən hər şeyi görə biləcəyik. Hazırda Sony, Samsung və Google şirkətlərinin ağıllı linzalar üçün aldığı patentlər mövcuddur. Həmin linzalar göz suyu vasitəsilə enerji yığacaq. Gözdən sonra əsas meyar beyinlərimiz olacaq. Daimi olaraq internetə bağlı, bir məlumat lazım olduqda data bazasından endirən və özünü təkmilləşdirən bir formaya düşəcək beyinlər bəlkə də Matriksin qapılarını aralamağımıza kömək edəcək. Bununla Marsa fiziki olaraq getmədən də bu prosesi bir göz qırpımında yalnız vizual deyil, həm də duyğularımızla hiss edə biləcəyik.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***




***A**tdığımız hər addımda qarşımıza çıxanın "görəsən, bu necə yaranıb" sualını öz-özümüzə verib onun səbəbini axtarmağa başlayırıq. Həm də müxtəlif mənbələr əsasında maraqlı faktlar toplayır, onlar haqqında məlumat almağa çalışırıq.*

*Hər şeydən əvvəl kainatın yaradılışı ən üst pillədə duran insan zəkasının hələ də tam araşdırıb tapmağa qadir olmadığı gizli sandığa bənzəyir ki, bu da daha çox diqqəti cəlb edərək onların tədqiqatına maraq yaradır.*

# Musiqinin ilk inciləri

**İnsan övladı doğulan andan qulağına gələn pıçıltılı nəğmələr onun dərin yuxularda gəzişməsinə, xoş əhvallı davranışlar sərgiləməsinə səbəb olur. Məhz musiqinin həyatımızdakı önəmi də buradan başlayır.**

Bəşəriyyətin özü qədər qədim olan musiqinin maraqlı tarixçəsi var. Bəzi mənbələrə görə, ən qədim nota alınan musiqi e.ə XIV əsrdə mixi yazı ilə Hurilər tərəfindən Tanrıça Nikkal üçün bəstələnən "6 nömrəli Hurrian Himni" adlanır. Melodiya gil lövhələr üzərinə yazılıb və 1950-ci ildə Suriyanın Uqarit şəhərində qazıntılar zamanı tapılıb. Pianoçu, bəstəkar Malek Jandalinin 5 dəqiqəlik piano ifasındakı bu musiqi kifayət qədər dərin notları özündə birləşdirir, dinlənilən zaman həmin dövrün ab-havasını xəyallarda canlandırır.

İlk musiqi kompozisiyasının tarixi isə bir qədər daha yaxındır. Yunan mədəniyyəti tarixə bir sıra töhfələr verməsi ilə yanaşı, ilk musiqi kompozisiyasının da banisidir. I əsrə aid yunan melodiyası olan "Seikilos Epitaph" adlı bəstə Seikilos tərəfindən həyat yoldaşının məzar daşına həkk olunmuş vəziyyətdə tapılıb.

Bu əsərə kompozisiyaya uyğun yunan dilində sözlər də əlavə olunub:

*Yaşadıqca parlayın,*
*Heç kədərlənməyin.*
*Həyat yalnız qısa müddət mövcuddur,*
*Vaxt isə öz haqqını tələb edir.*

Bir sıra dünya şöhrətli musiqiçilər bu bəstənin tapılması nəticəsində çağdaş kompozisiyadan yeni nümunələr təqdim etmişlər.



## İlk musiqi alətindən çıxan not

**Melodiyalara ahəng qatan, onları daha da dolğunlaşdıran musiqi alətləridir. Ən qədim musiqi aləti fleyta olaraq bilinir. Onun 50-60 min yaşının olduğu sübut edilib.**

Bu alət dünya əhəmiyyətli xəzinə hesab edilir. Neandertal fleyta adlanan bu alət 1995-ci ildə Slovakiyada arxeoloq İvan Turk tərəfindən "Divje" mağarasından tapılıb. Fleyta cavan ayının sol bud sümüyündən hazırlanıb, 4 dəlikdən ibarətdir. Tədqiqatçılar bu dəliklərin təsadüfən yerləşdirilmədiyini, musiqi ahənginə uyğunlaşdırılaraq qoyulduğunu təsdiqləyiblər.

Aparılan araşdırmalardan sonra fleytanı çalmaq üçün gildən birəbir eynisi düzəldilib. Məşhur sənətçi L.Dimkaroski hazırlanan bu fleyta ilə Bethoven, Verdi, Ravel kimi bəstəkarların repertuarlarından olan musiqi parçalarını səsləndirib. Hətta o, sonralar bu fleyta ilə konsert də verib. Artıq hər kəs Dimkaroskinin yenidən nəfəs verdiyi bu fleyta ilə çalınan musiqiləri dinləyib keçmişə səyahət edə bilər.

# Ən qədim xəritə

**Yalnız əlimizi üzərinə qoyaraq dünyanı barmaqlarımızla gəzə bildiyimiz əyani vasitələrdən biri olan xəritələr dünya ölkələri haqqında ilkin fikirlərin formalaşması üçün əla kəşfdir.**

İlk ibtidai xəritələrin hazırlanması eradan əvvəlki dövrlərə gedib çıxsa da, onların əksəriyyətinin maddi sübutu yoxdur. İlk xəritələrin e.ə 5-6-cı əsrlərdə hazırlandığı qeyd edilir. Bu xəritələrin müəllifləri babillər və yunanlar hesab olunur. İlk çəkilən xəritələr dünyanın düz olduğu fikri əsasında, Ellinizm dövründən etibarən isə artıq kürə şəklində ərsəyə gəlmişdi.



Ən qədim xəritə gil üzərinə eramızdan əvvəl 6-cı əsrdə babillər tərəfindən həkk olunub. Xəritənin mərkəzində təsvir olunan ərazi Mesopotamiya, onun ətrafını dairəvi şəkildə əhatələyən sahə isə okeandır. Burada Assuriya, Urartu və s. kimi dövlətlər, Dəclə və Fərat çayları göstərilmişdir. Okeanın kənarlarında üçbucaq formasında göstərilmiş 8 vilayət qeyd olunub. Xəritənin yuxarı hissəsindəki mixi yazı ilə yazılan mətn korlanmış vəziyyətdə olduğundan oradakı əsas fikri tam oxumaq mümkün deyil. Xəritə Bağdad vilayətində tapılıb, hazırda Londonda Britaniya muzeyində sərgilənməkdədir.

# Rəsm yaradıcılığının ilk cizgiləri

**İncəsənətin janrları sırasında yer alıb rəngarəng mövzu və düşündürücü mənaları özündə əks etdirən rəsm əsərləri rəğbət duyulan istedadın ərsəyə gətirdiyi nəticədir.**

Təsadüfi deyil ki, daha çox subniminal mesajları ilə müxtəlif ideologiyaları xarakterizə edən nümunələrlə rəssamlar dünya tanınmışları sırasında yer alırlar, əsərləri isə məşhur muzey və qalereyalarda nümayiş olunur.

Məşhur əsərlərə böyük cığır yolunu açan ilk rəsm kiçik bir qaya parçasının üzərində çəkilib. Cənubi Afrikada Blombos mağarasından tapılan bu rəsmin 73 min yaşı var. Alimlər deyirlər ki, ilk ağıllı insan Homo Sapiens bu rəsmi çəkərkən qırmızı oxra qələmindən istifadə edib.



Yeri gəlmişkən, bu qələmdən Neolit dövründə (e.ə VII-VI minillik) insanlar öz heyvanlarını tanımaq məqsədilə onların üzərinə rəng çəkmək məqsədilə də istifadə edirdilər.

Qaya parçası üzərindəki rəsm kəsişən xətlərdən ibarətdir. Bu xətli rəsmlərə sonrakı dövrlərdə Avstraliya və Fransadakı digər insan məskənlərində də rast gəlinib. Berqen Universitetinin tədqiqatçı alimi Kristofor Henşilvud bu xətlərin hansı mənanı ifadə etdiyinin hələ də məlum olmadığını vurğulayıb. O qeyd edirdi ki, mağaranın tədqiqatı zamanı tapılan bu daş parçasının üzərindəki ləkə və kirli təbəqə ilk başda onun adi daş olduğunu göstərsə də, laboratoriyada yuyulan zaman daşdakı qırmızı xətlər asanlıqla üzə çıxmışdır.

K.Henşilvud rəsmin üzərindəki xətlərə "belə görünür ki, insan yaradıcılığının bu hissəsi işarələrin vəhdətindən ibarətdir", - deyə şərh verib.

Bu gün müasir insanın ərsəyə gətirdiyi möhtəşəm əsərlərin başlanğıc tarixini bundan götürmək absurd görünsə də, unutmaq olmaz ki, dünya yarananda hər şey primitivliyi ilə seçilirdi.



## Dünyanın ilk modern atlası

**Coğrafi ərazilərin tamamilə kəşf edilməsi tarixdə uzun vaxt aparan proseslərdən biri hesab edilir. Uzun müddət ərzində ayrı-ayrı ərazilərin bir çox xəritələri hazırlanmış, hətta onlar dəfələrlə təkmilləşdirilmişdi. Toplanan bu xəritələrin hesabına Yer kürəsinin ümumi xəritəsi ərsəyə gətirilmişdi.**

Dünyanın ilk modern atlası Teatrum Orbis Terrarum (Yer Kürəsi Teatrı) adlanır. Əslində Piri Rəisin 1513-cü ildə hazırladığı dünya xəritəsi bir çoxlarına ilk müasir xəritə kimi məlumdur. Lakin bu xəritədə bütün qitələr tamamilə əhatələnmədiyi üçün o, ilk modern atlas hesab edilmir.

"Teatrum Orbis Terrarum" atlası 20 may 1570-ci ildə Abraham Ortelius tərəfindən çap edilmişdi. Atlasın original nəşri kartoqraflar tərəfindən hazırlanan 70 xəritədən və izahlı mətnlə birlikdə 53 səhifədən ibarətdir. İlk nəşrdən sonra Ortelius müntəzəm olaraq xəritəni təkmilləşdirir, onun müxtəlif çeşidli yeni versiyalarını təqdim edirdi. Atlasın sonuncu nümunəsi, 31-ci buraxılışı 167 xəritəni əhatə etmişdi. Bütün bu mərhələlərdən sonra belə xəritəyə diqqətlə baxsaq hələ də müəyyən ərazilərin burada təsvir olunmadığını görərik.

Dünyanın nəhəngliyi bir daha onun hər bir qarışının tam sübuta yetirilə bilməyinin nə qədər qəliz olduğunu bu faktlar da göstərir. Latın dilində olan bu xəritə sonralar alman, holland, fransız, ispan, italyan və ingilis dillərinə də nəşr olunub.

Bu atlasın yaranması ilə 1570-ci ildən 17-ci əsrin sonlarına qədər Hollandiyada bir sıra xəritələr tərtib olunmağa başlandı. Hollandiya həmin zamanda xəritə tərtibatında ən geri qalan ölkələrdən idi. Tərtibatın inkişafı nəticəsində həmin dövr "Holland Kartoqrafiyasının Qızıl Dövrü" kimi adlandırılmışdı.

Yeri gəlmişkən, Abraham Ortelius qitələrin bir zamanlar vahid halda olduğunu iddia etmiş, bunun nəticəsi olaraq ilk dəfə "Qitə sürüşməsi" teoriyasını irəli sürmüşdü. O qeyd edirdi ki, qitələr hərəkət halındadır, bunun nəticəsində onlar indiki mövqelərini tutublar.

# İnsan suyun üzərində dayandı

**İnsan dənizlə üz-üzə gələndə çaşbaş qalır. Sahildən ucsuz-bucaqsız görünən bu dərya ilə başa çıxmaq isə elə də asan deyil. Onun üzərində durub suya təmas etmədən hərəkət etməksə imkansız idi. Onlar bu barədə düşünürmüşlər. Bunun üçün bir vasitə lazım gəlirdi - gəmi düzəltmək. Beləliklə, gəmi ixtira edilir.**



İlkin ixtirasında bir qurudan digər quruya keçmək, yük daşımaq məqsədi daşıyan yeganə vasitə olan gəmi insanlıq tarixində mühüm əhəmiyyətə malikdir. Həmin vaxtdan sonra yaranan müxtəlif çeşidli gəmilər özündə yalnız bu iki məqsədi deyil, eyni zamanda kəşfiyyat, hərbi, istirahət, əyləncə, səyahət və s. kimi məsələləri də birləşdirdi.

Hər kəsin gəmi dedikdə gözünün önünə gələn o əzəmətli görüntünün ərsəyə gəlməsinin başlanğıcı qəribə görünüşlü kiçik bir qayıq ilə qoyulub. Tarixə bəlli olan ən qədim qayıq "Pesse" adlanır. Eramızdan əvvəl 8-9-cu minilliyə aid olan bu qayıq yerli fermer tərəfindən 1955-ci ildə tapılıb. "Pesse" adlandırılması isə tapıldığı yerlə əlaqəlidir. Belə ki, qayıq Hollandiyanın Pesse kəndində avtomobil yolunun inşası zamanı meydana çıxıb. Qayıq tədqiqatdan sonra dondurulub, Hollandiyanın "Drents" muzeyində sərgiləndirilir.

Şotland şam ağacından hazırlanan qayığın uzunluğu 3 metr, eni isə 44 santimetrdir. Ölçüsündən də göründüyü kimi, olduqca kiçikdir. Tədqiqat zamanı bəzi arxeoloqlar bunun gəmi olduğu düşüncəsi ilə razılaşmırdılar. Bu qədər kiçik ölçülü vasitənin dənizdə tarazlığını qoruyub hərəkət etməsi qeyri-real görünmürdü. Bu vasitənin qayıq olub-olmadığını yoxlamaq üçün danimarkalı arxeoloq Jaap Bueker qayığın eyniylə başqa bir formasını hazırladı və test zamanı qayıqçı uğurla müəyyən bir məsafəni qət etdi. Bunun qayıq olub-olmaması ilə bağlı şübhələr bu eksperimentdən sonra aradan qalxdı. Bu tipli eyni qayıqlar sonrakı dövrlərdə Afrikada da tapılmışdı.

## Qayıqdan gəmiyə doğru

**Dəniz nəqliyyatı kimi hazırlanan qayıqlar artıq gəmi formasını almağa başlamışdı. İlk qayıqlardan sonra meydana çıxan "Kufu" gəmisi adlanan vasitə həmin zamana qədər məlum olan ən fərqli görünüşlü gəmi idi.**

Gəmi eramızdan əvvəl 3-cü minillikdə misirlilər tərəfindən hazırlanıb. "Giza" piramida kompleksində çuxura basdırılmış vəziyyətdə tapılan gəminin uzunluğu 43.6 metr, eni isə 5.9 metrdir. Gəmi o zamana qədər bütöv parça halında tapılan ilk ən qədim gəmidir. Hazırda da gəmi suyun üzərinə qoyularsa, sərbəst hərəkət edə bilər. "Kufu" gəmisi "Giza" piramida muzeyində ictimaiyyətə nümayiş etdirilir.

Eramızın başlanğıclarına nəzər yetirsək, kifayət qədər təkmilləşdirilmiş gəmi növləri ilə qarşılaşarıq. Gəmiçilikdə xüsusilə fərqlənən, dənizlərin şahı adlandırılan Vikinqlər özünəməxsus gəmiləri ilə seçilirdilər. Vikinqlərə məxsus 9-cu əsrdə hazırlanan ilk Vikinq



gəmilərindən biri olan "Oseberq" heyvan naxışlarının palıd üzərinə oyulması ilə bəzədilib, xüsusi zərifliyi ilə seçilir. Norveçdə böyük bir kurqanda aşkar edilib. Gəminin uzunluğu 21.5, eni 5.1 metrdir. Gəmidə 15 cüt avar çuxuru var, yəni 30 nəfər gəmini avarla hərəkətə gətirə bilər. Gəminin hazırlanan maketi ilə eksperiment zamanı 10 düyünə qədər sürətləndiyi qeydə alınıb. Bu da onu göstərir ki, "Oseberq" gəmisi Vikinqlərin ən məşhur gəmilərindən olmaqla yanaşı, kifayət qədər sürətli və əzəmətlidir. Norveçdə "Vikinq" gəmi muzeyində nümayiş olunur.

***Aydan XƏLİLOVA, "Azərbaycan"***

# AZAL-ın uçuş heyətinin ənənəvi ümumi toplantısı keçirilmişdir





**"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, Azərbaycanın Milli aviadaşıyıcısının uçuş heyətinin ənənəvi ümumi toplantısı keçirilmişdir. AZAL-ın prezidenti Cahangir Əsgərov bütün uçuş heyətinə yüksək peşəkarlıq səviyyəsinə, məhsuldar əməyinə, təcrübəsinə, mülki aviasiyanın inkişafına verdiyi töhfəyə və bu sahənin bu gün və gələcəkdə bütün əhəmiyyətini dərk etdiyinə görə təşəkkürünü bildirib.**

O qeyd edib ki, Azərbaycan mülki aviasiyasının uğurlu inkişafı Prezident İlham Əliyevin daimi dəstəyi və qayğısı sayəsində mümkün olub.

Dövlət başçısının tapşırığına əsasən, işğaldan azad edilmiş Azərbaycan ərazilərində - Füzuli, Zəngilan və Laçın rayonlarında üç beynəlxalq hava limanının tikintisi həyata keçirilir. Bu gün Qarabağ səmasında, uzunmüddətli fasilədən sonra milli naviqasiya sistemlərinin radioçağırış siqnalları ötürülür. İlk olaraq bu siqnalları AZAL təyyarələri qəbul edib.

Tədbir zamanı azərbaycanlı pilotların hazırlığının və uçuşların təhlükəsizliyinin yüksək səviyyədə olduğu qeyd edilib. Xüsusilə AZAL prezidenti Embraer E-190 tipli təyyarə üçün son nəsil trenajorun Azərbaycan Milli Aviasiya Akademiyasında fəaliyyət göstərən Pilotların Hazırlığı Mərkəzində tezliklə istifadəyə veriləcəyini bildirib. Bu kompleks, Airbus 319/320 və Boeing 757/767 tipli təyyarələrin mövcud uçuş simulyatorlarına əlavə olaraq, pilotların yüksək uçuş hazırlığı və ixtisasının artırılması üçün nəzərdə tutulmuşdur. Mərkəzdə təkcə Azərbaycanın deyil, həm də xarici aviaşirkətlərin pilotları uçuş hazırlığı və sertifikatlaşdırma keçir.

"Azərbaycanın mülki aviasiyası çoxillik təcrübəyə malikdir və biz bunu daim təkmilləşdiririk. Azərbaycanlı pilotların peşəkarlığının dünya aviatorlar birliyi tərəfindən təsdiq olunduğu təkzibedilməz faktdır. Bu gün uçuş heyətinin yüksək ustalığının təmin edilməsi üçün lazımi addımlar atılır", - deyə AZAL-ın prezidenti qeyd edib. O, həmçinin bildirib ki, təhlükəsizlik səviyyəsinin yüksəldilməsi, həmçinin sərnişinlərin həyatı və sağlamlığının qorunmasının gücləndirilməsi məqsədilə Azərbaycanın Milli aviadaşıyıcısının bütün uçuş heyəti COVID-19 koronavirus infeksiyasına qarşı peyvənd olunub.

Görüşdə pilotlar yeni inşa edilmiş ofisdə uçuş heyəti üçün yaradılan rahat şəraitə görə AZAL rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Həqiqətən, son IOSA auditi (IATA OperationalSafety Audit) zamanı ekspertlər Azərbaycanın Milli aviadaşıyıcısının uçuş heyəti üçün yaradılmış şəraitin ən ciddi beynəlxalq tələblərə uyğun olduğunu təsdiqləyiblər.

Uçuş heyətinin toplantısında kişi kollektivi ilə yanaşı, bu gün hava gəmilərində daxili və beynəlxalq sərnişin reysləri yerinə yetirən qadın pilotlar da iştirak ediblər.

"Öz peşəsinin vurğunu olan qadın pilotlar artıq bizim mehriban uçuş ailəmizin bir hissəsi olub. Sovet hakimiyyəti illərində Azərbaycanın mülki aviasiyasında artıq sərnişin təyyarələrini idarə edən qadın pilotlar mövcud idi. İlk azərbaycanlı təyyarəçi-qadın isə 1931-ci ilin iyulunda ilk uçuşunu həyata keçirən Leyla Məmmədbəyova olub", - deyə Cahangir Əsgərov qeyd edib.


## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
## *açıq tender elan edir*

*Təkrar*

**LOT - 1.** Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, tel: 496-52-05.

**LOT 1 - 1000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWİFT: IBAZAZ2X**

İştirak haqqı heç bir halda qeri qaytarılmır. İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri **17 avqust 2021-ci il saat 11:00-a** və tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **23 avqust 2021-ci il saat 18:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **24 avqust 2021-ci il saat 11:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***



## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
## *açıq tender elan edir*

*Təkrar*

**LOT - 1.** Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Nizami adına mədəniyyət və istirahət parkında abadlıq işlərinin görülməsinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, tel: 496-52-05.

**LOT 1 - 2000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWİFT: IBAZAZ2X**

İştirak haqqı heç bir halda qeri qaytarılmır. İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri **11 avqust 2021-ci il saat 11:00-a** və tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **18 avqust 2021-ci il saat 18:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **19 avqust 2021-ci il saat 11:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***


# Şuşanın dağları



**Qarabağ silsiləsi Kiçik Qafqaz sıra dağlarında şimal-qərbdən cənub-qərbə tərəf 120 kilometr məsafədə uzanır.**

Hündür təpələr və aşırımlardan çağlaya-çağlaya axıb gələrək bir-birinə qarışan Qarqar, Xaçın, Tərtər, Köndələn, Ağvan, Quruçay, Qozluçay çayları öz mənbəyini Qarabağ silsiləsinin sinəsində qaynayan bulaqlardan götürür. Şuşa dağ-iqlim kurortu da Qarabağ silsiləsində yerləşir. Bu təbiət şəhərinin bir yanında Qırxqız, Sarıbaba, Kirs, Sağsağan, o biri tərəfində isə Bağrıqan, Çaxmaq, Keçəldağ, Qızıldaş sıralanıb.

AZƏRTAC xəbər verir ki, Qarabağda yetişən nadir tarixi şəxsiyyətlər, ailələr, nəsillər, şəcərələr, konkret tarixi hadisələr, eləcə də qədim diyar barədə etnoqrafik kitabların müəllifi tədqiqatçı-jurnalist Vasif Quliyev Şuşanın ətrafında olan dağlar haqqında danışarkən deyib: "Əfsanələrin birində zirvəsi həmişə dumanlı-çənli olan Qırxqız dağı və onun yaranışı haqqında əfsanələrin birində belə yozulur: "Bir gün qırx qız "Qızlar bulağı" deyilən çeşmədən şərbət kimi su içəndən sonra dünya gözəlinə çevrilirlər. Qızların hər biri lay divar kimi bir oğlan sevir. Lakin cadu edilən oğlanlar ayrı-ayrılıqda uğursuzluğa düçar olur və öz sevgilərinə çata bilmir, qızlar həyatdan nakam köçürlər. Onların sevgi, məhəbbət oxları daşa dəydiyindən hamısı tək-tək daşa dönür. O vaxtdan dağın adı "Qırxqız" qalır.

Şuşa ərazisində olan Kirs dağı Qarabağ silsiləsinin ən yüksək zirvələrindəndir, hündürlüyü 2725 metrdir. Adının mənası "uca", "böyük", "sıldırım" deməkdir. Əjdaha ağzı kimi haçalı zirvəsi, əsatiri gözəlliyi olan və Qarabağın qüvvət rəmzi sayılan bu maraqlı və əzəmətli təbiət abidəsi Orta Yura dövrünün vulkanogen çökmə süxurlarından ibarətdir. Zirvəsi daim buludların içində görünməz, çılpaq və qırmızı rəngli yamacları həmişə qarlı, sinəsi il uzunu yamyaşıl, hündür və qalın yarpaqlı ağaclarla örtülü olan bu dağın ətəyində isə Kiçik Kirs dağı yerləşir. Bəzən ona "Bala Kirs" də deyilir. Toponimin tərkibindəki "kiçik" sözü fərqləndirici əlamət daşıyır, hündürlüyü 1374 metrdir. Sarıbaba Şuşa və Laçın rayonları arasında Qarabağ silsiləsində Qarqar çayının sol qolu Bəzirgansu çayının mənbə hissəsindədir, hündürlüyü 2295 metrdir, subalp çəmənlikləri ilə zəngindir. Üst Yuranın əhəng daşlarından ibarətdir. Dağ özünün zirvəsində olan Sarıbaba dağının adı ilə adlandırılıb.

Turşsu qəsəbəsində yerləşən Sağsağan dağı qarğalar fəsiləsindən olan sağsağan quşunun adı ilə adlanır, Qarabağ silsiləsinin şimal-şərq qolunu təşkil edir. Orta Yuranın vulkanogen çökmə süxurlarından və meşələrdən, subalp çəmənliklərdən ibarətdir, hündürlüyü 2 min metrə çatır.

Şuşa şəhərindən 18 kilometr aralıda, dərədə yerləşən Keçəldağ səthi çılpaq, bitkisiz, keçəl olduğundan belə coğrafi ad alıb, hündürlüyü 1800 metrə qədərdir. Keçəldağın tərkibi bol dəmirli, çimmək üçün çox faydalı olan müalicəvi mədən suları, təmiz, şəfalı havası və möcüzəli təbiəti var. Bu dərədən axan çayın sol sahilində keyfiyyətdə narzan suyundan da yüksək olan turşsu çıxır. Oradan bir qədər aşağıda tərkibində daha çox dəmir olan bir neçə bulaq var. Keçəldağın ətrafı qəribə dağ havası və gözəl mənzərələrlə zəngindir. Dağ Üst Pilosenin vulkan süxurlarından yaranmışdır. Bir neçə qayalı zirvəsi var.

Şuşa rayonu ərazisində, Qarabağ silsiləsinin yamacında yerləşən Çaxmaq dağında çoxlu miqdarda çaxmaq daşı olduğu üçün belə adlandırılıb. Qızıldaş dağı Şuşa yaxınlığındadır, dağın adı "qızıl" və "daş" sözlərindən ibarətdir. Burada "qızıl" sözü qırmızı mənasında işlənmişdir. Dağ buradakı qırmızıya çalan vulkan mənşəli süxurlu daşa görə bu adı alıb.

Çaqqala dağının zirvəsində üç təpə var, Onların ətəyində çaqqala ağacları bitdiyindən dağ həmin bitkinin adı ilə adlandırılıb.

Qarabağ silsiləsində, Şuşanın şərq tərəfində, Malıbəyli kəndi yaxınlığında yerləşən Bağrıqan dağına el arasında "Bağırqan" da deyilir. O qədər də hündür deyil. Həmin toponimin yaranması haqqında xalq etimologiyasına söykənən bir çox əfsanə və rəvayətlər var. Şair, rəssam, musiqişünas alim Mir Möhsün Nəvvab Qarabağı özünün "1905-1906-ci illərdə erməni-müsəlman davası" adlı kitabında belə bir hadisə söyləyir: "Mərhum İbrahimxəlil xanın hökmranlığı zamanında Pənahabad, yəni, Şuşa qalasının şərq tərəfində "Bağrıqan dağı" deyilən yerdə uca bir qaya vardı. Həmin dağda öz təbəələri ilə Avan Koxa adlı bir erməni yaşayırdı. O, təbəələrinə buyurmuşdu ki, harada əllərinə müsəlman düşsə, mənim hüzuruma gətirsinlər. Avan Koxanın əmri ilə tutulmuş müsəlmanı çılpaqlayıb üzüüstə yerə yıxardılar, bundan sonra onun arxasının dərisindən dörd barmaq enində bıçaqla soyub boynundan qom ətinəcən iki tərəfdən xətt çəkir və dərinin ucunu aşağı əydirilmiş ağacın qüvvətli budağına bənd edib, budağı buraxardılar. Ağacın budağı qüvvətlə yuxarı qalxanda yazıq müsəlmanın dərisi boynuna qədər soyulardı və onun bağırtısı o dağa, ətrafa yayılardı. Bunu eşidib-görənin də bağrı qan-qan olardı. Elə buna görə də həmin qayaya Bağrıqan dağı adı vermişdilər".

Sal qranit qaya üzərində qartal kimi qanad gərən təbiət gözəli Şuşa ağsaqqal qoca kimi baş-başa verən zəncirvari silsilələrlə əhatələnib. Bir-birinin davamı və dayağı olan bu ulu dağlar isə sanki Qalaya gecə-gündüz keşik çəkən ən sadiq əsgər təsiri bağışlayır".

# "Rəqəmsal Jurnalistikaya doğru" proqramına yekun vurulub

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzinin (EHİM) təşkilatçılığı və "PAŞA Holdinq"in sponsorluğu ilə həyata keçirilən 3-cü "Rəqəmsal Jurnalistikaya doğru" proqramına yekun vurulub.





Proqramın bağlanış mərasimində dövlət agentliyinin sədri Ülvi Mehdiyev, EHİM-in direktoru Fariz Cəfərov, proqram iştirakçıları və media nümayəndələri iştirak ediblər.

Agentliyin sədri Ülvi Mehdiyev "Rəqəmsal Jurnalistikaya doğru" proqramı çərçivəsində 110-a yaxın media nümayəndəsinin maarifləndirildiyini və sertifikatlarla təltif edildiyini vurğulayıb. Həmçinin proqramın mediaya və onların xətti ilə cəmiyyətin maariflənməsinə verdiyi töhfə, bu cür sosial məsuliyyət layihələrinin inkişafa gedən yolda önəmi vurğulanıb.

Tədbirdə proqramın birinci hissəsi çərçivəsində təşkil olunan vörkşopları və iştirakçıların proqram haqqında fikirlərini əks etdirən videoçarx nümayiş olunub.

Sonra proqramı müvəffəqiyyətlə bitirən bütün iştirakçılar EHİM tərəfindən sertifikat və hədiyyələrlə təltif olunublar. Həmçinin proqram çərçivəsində həyata keçirilən müsabiqənin qalibləri də elan edilib. Qaliblər sırasında "Azərbaycan" qəzetinin əməkdaşı Aydan Xəlilova da var.

Tədbirin sonunda iştirakçılar üçün EHİM-in inzibati binasında media-tur təşkil olunub və mərkəzin struktur və bölmələrinin fəaliyyəti haqqında ətraflı məlumat verilib.

"Rəqəmsal Jurnalistikaya doğru" proqramının əsas məqsədi media nümayəndələrini elektron dövlət xidmətləri, rəqəmsal həllər haqqında məlumatlandırmaq və onların vasitəsilə də cəmiyyətin bu istiqamətdə rəqəmsal savadlılığının artırılmasına nail olmaqdır.

Xatırladaq ki, 1-ci və 2-ci "Rəqəmsal Jurnalistikaya doğru" proqramı 2020-ci ildə keçirilib və böyük marağa səbəb olub.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# *Baş Prokurorluq:* "Milli Məclisin deputatının polis əməkdaşına qarşı zor tətbiq etməsi ilə bağlı cinayət işi başlanıb"

İyulun 29-da saat 01 radələrində Xaçmaz şəhərindəki "Starıy Dvor" restoranında Azərbaycan Respublikası Milli Məclisinin deputatı Eldəniz Səlimovun polis əməkdaşına xidməti vəzifələrinin icrası ilə əlaqədar zor tətbiq etməsi barədə Daxili İşlər Nazirliyindən daxil olmuş material Baş Prokurorluqda araşdırılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, toplanmış material üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 309.2-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə cinayət işi başlanıb. İstintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılıb. Hazırda iş üzrə intensiv istintaq hərəkətləri aparılır.

Kütləvi informasiya vasitələrindən dəqiqləşdirilməmiş məlumatların yayılmaması xahiş edilir.

İstintaqın gedişatı barədə ictimaiyyətə əlavə məlumat veriləcək.


## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 01 iyun 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə "Bakı Metropoliteni" QSC-nin istismarda olan metro vaqonlarının (Vaqonların siyahısı 2825-1912-1911-1910-2826, 2853-1999-3003-3007-2854, 2723-1582-1583-1584-2724, 2725-1585-1586-1588-2726, 2659-1474-1475-1476-2669, 2803-1853-1852-1851-2804, 2772-1741-1740-1739-2773) ön görünüşünün dəyişdirilməsi, qumla təmizlənməsi üçün tam sökülməsi, qumla təmizlənməsi, antipas boya ilə rənglənməsi, kuzovun bərpası, ikiqat akril boya ilə rənglənməsi, yığılması və salon daxili işıqlanmanın tam dəyişdirilməsi və modernləşməsi işlərinin satın alınmasına dair açıq tender üsulu ilə müsabiqə keçirilmiş və "BAKI MEXANİKİ-TƏMİR" ATİSC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 717.333,51 (yeddi yüz on yeddi min üç yüz otuz üç manat 51 qəpik) manat ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

"TBC Kredit BOKT" MMC-yə məxsus TBC-İP 000879 saylı İpoteka kağızı itdiyi üçün etibarsız sayılır.



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4594
Sifariş 1342
Qiyməti 40 qəpik